QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 056 (5528) 25 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xalq öz gələcəyini İlham Əliyevə etibar edir!



3

**Məzahir Pənahov: "Bülletenlərin çapı prosesi bir həftə ərzində başa çatacaq"**



3

**Azərbaycanın müdafiə naziri Türkiyəyə səfər edəcək**



2

**Serbiya Respublikasının sabiq Prezidenti: Ümid edirəm ki, azərbaycanlılar İlham Əliyevə etimad göstərəcəklər**






# Serbiya Respublikasının sabiq Prezidenti: Ümid edirəm ki, azərbaycanlılar İlham Əliyevə etimad göstərəcəklər

***Bu fikri Serbiya Respublikasının sabiq Prezidenti , hazırda Rusiya və Çinlə əməkdaşlığın əlaqələndirilməsi üzrə Milli Şuranın rəhbəri vəzifəsində çalışan Tomislav Nikoliç Serbiyanın nüfuzlu "Danas" qəzetinə müsahibəsində ifadə edib***

Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkilərinə beynəlxalq miqyasda böyük maraq var. Ayrı-ayrı xarici ölkələrin nüfuzlu nəşrlərində dərc edilən məqalələrdən, təhlil yazılarından aydın görünür ki, respublikamızda qarşıdan gələn prezident seçkiləri ilə bağlı müvafiq qurumlar tərəfindən aparılan hazırlıq işləri böyük maraqla izlənilir. Bütövlükdə, bəhs olunan məqalələrdə respublikamızda mövcud olan seçkiöncəsi demokratik mühit, Mərkəzi Seçki Komissiyasında qeydə alınan namizədlərin bərabər əsaslarla fəal təbliğat-təşviqat kampaniyası aparmaları, yerli və xarici müşahidəçi missiyalarının fəaliyyətinə əlverişli şərait yaradılması yüksək dəyərləndirilir.

2012-2017-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuş, hazırda isə Rusiya və Çinlə əməkdaşlığın əlaqələndirilməsi üzrə Milli Şuranın rəhbəri vəzifəsində çalışan Tomislav Nikoliçin Serbiyanın nüfuzlu, geniş oxucu auditoriyasına malik "Danas" qəzetinə müsahibəsində də Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı maraqlı məqamlar yer alıb. Qəzetin 22 mart 2018-ci il tarixli sayında dərc edilən yazı oxuculara "Ümid edirəm ki, azərbaycanlılar İlham Əliyevə etimad göstərəcəklər" sərlövhəsi ilə təqdim olunub. Müsahibə həmçinin geniş şəkildə qəzetin internet səhifəsində yerləşdirilib. (https://www.danas.rs/ svet/nikolic-nadam-se-da-cenarod-u-azerbeydzanu-pokloniti-poverenje-aliyevu/).



Genişhəcmli müsahibəsində Serbiya Prezidenti vəzifəsindən getdikdən sonra dünyada və dost ölkələrdə, o cümlədən də Azərbaycanda baş verən hadisələri diqqətlə izlədiyini bildirən Tomislav Nikoliç 2013-cü ilin fevralında Azərbaycana rəsmi səfərini, həmçinin 2015-ci ildə Bakıda keçirilən birinci Avropa Oyunlarının açılış mərasimi çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü və söhbətlərini unudulmaz xatirələrlə yad etdiyini nəzərə çatdırıb. Serbiyanın sabiq dövlət başçısı Azərbaycan Prezidentinin onda uzaqgörən və müdrik siyasətçi təsiri bağışladığını söyləyib. Jurnalist P. Zvezdariçin suallarını cavablandıran Tomislav Nikoliç fikirlərinə davam edərək vurğulayıb: "Ümid edirəm ki, qədirbilən Azərbaycan xalqı Prezident İlham Əliyevə etimad göstərəcəkdir. Bu gün dünyada elə bir vaxt yetişib ki, xalqlar öz əməlləri ilə özünü təsdiq edən və öz xalqına bağlılığını göstərən şəxslərə səs verirlər. Azərbaycanın uğurları İlham Əliyevin müdrik və ağıllı siyasətinin nəticəsidir. Fürsətdən istifadə edərək, Prezident İlham Əliyevə səmimi qəlbdən uğurlar və dost Azərbaycan xalqına rifah arzulayıram".

Müsahibədə Serbiyanın qədim İpək Yolu üzərində yerləşən Azərbaycanla əməkdaşlığının önəmi də xüsusi vurğulanıb. Tomislav Nikoliç müəllifin "Siz Çin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" layihəsini qeyd etdiniz. Serbiya qədim İpək Yolu üzərində yerləşən daha hansı ölkələrlə sıx əməkdaşlıq edə bilər?" sualına belə cavab verib: "Bir kəmər, bir yol" təşəbbüsü Çin Prezidenti Si Szinpin tərəfindən irəli sürülmüşdür. Təşəbbüsə Asiya, Afrika və Avropanın onlarca ölkəsi cəlb olunub. Xatırladım ki, Çin regionda neçə əsrlər boyu hamıya məlum olan İpək Yolu vasitəsilə əməkdaşlıq etmişdir. Hazırda bizim yenidən Çinlə əlavə əlaqə qurmaq və bu əməkdaşlığın potensialından istifadə etmək imkanımız var. Mart ayının ortalarında Azərbaycan Serbiyadan olan deputatların da iştirak etdiyi İpək Yolu boyunca iqtisadi əməkdaşlığın və mədəni əlaqələrin möhkəmlənməsində parlamentarilərin rolu mövzusunda beynəlxalq konfransa ev sahibliyi etmişdir. Bu, bizim İpək Yolunun inkişafına birgə fəal töhfəmizdən xəbər verir.

Serbiyanın İpək Yolu üzərində sıx əməkdaşlıq edə biləcəyi ölkələrə gəlincə, xüsusilə Azərbaycanı qeyd etmək istərdim. Azərbaycan Çinlə birlikdə Serbiyada infrastruktur layihələrində iştirak edir. 11-ci dəhliz layihəsinin Lyiq-Prelyina hissəsini Azərbaycanın AzVirt şirkəti tikmişdir. Görülən işlərin keyfiyyəti AzVirtin ölkəmizdə fəaliyyətini davam etdirməsində Serbiya hökumətini maraqlı edən səbəbdir. Artıq bu günlərdə bizim azərbaycanlı və çinli tərəfdaşlarımız Serbiya üçün mühüm əhəmiyyət kəsb edən daha bir vacib layihənin həyata keçirilməsinə başlayacaqlar. Serbiya ikitərəfli qaydada Azərbaycanla iqtisadi əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsinin tərəfdarıdır - xüsusilə də Azərbaycanın Serbiyada özəlləşdirmə prosesində daha yaxından iştirakında və Serbiya iqtisadiyyatına iri sərmayə qoyuluşunda".

Müsahibədə Serbiya ilə Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərində də bəhs edilib. Tomislav Nikoliç Serbiyanın suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının dəstəklənməsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyinin ölkəsində yüksək dəyərləndirildiyini xüsusi olaraq vurğulayıb. Tomislav Nikoliç Serbiya və Azərbaycan arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamənin onun prezidentliyi dövründə imzalandığını da xatırladıb. "Bu sənəd 2013-cü ildə mənim Azərbaycana rəsmi səfərim zamanı imzalanmışdır. Bu günlərdə həmin Bəyannamənin imzalanmasının beş ili tamam olmuşdur. Bu münasibətlə dostum və qardaşım, Azərbaycan Prezidenti cənab İlham Əliyevi təbrik edirəm," - deyə Serbiyanın sabiq dövlət başçısı Tomislav Nikoliç qeyd edib.



## Naxçıvanda Novruz iməciliyi keçirilib

Təbiətin oyanması Novruzun gəlişi ilə başlayır. Yeni günün, yeni nizamın başlanğıcı olan Novruzun min illərdir qorunub-yaşadılan ənənələrindən biri də bayram günlərində yaz-tarla işlərinin görülməsi, təsərrüfatlarda səliqə-sahman yaradılmasıdır. Təbiətə qayğı və torpağa bağlılıqdan qaynaqlanan bu adətlər muxtar respublikada bu gün də yaşadılır. Novruz bayramı münasibətilə iməciliklər keçirilir, meyvə bağları və yaşıllıqlar salınır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 24-də Naxçıvan Muxtar Respublikasında Novruz iməciliyi keçirilib, Naxçıvan şəhərində və rayon mərkəzlərində "Gənclər bağı" salınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin və Naxçıvan Şəhər İcra Hakimiyyətinin kollektivləri Naxçıvan-Şərur-Sədərək magistral avtomobil yolunun kənarında keçirilən iməcilikdə iştirak ediblər. İməcilik iştirakçıları 2 hektar ərazidə 1500 meyvə tingi əkiblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak edib, meyvə tingləri əkib. Ali Məclisin Sədri meyvə bağlarına və yaşıllıq zolaqlarına düzgün aqrotexniki qulluq göstərilməsi barədə tapşırıqlar verib.

## Mərkəzi Seçki Komissiyası prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin çapına başlayıb



2018-ci il aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb. AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov və Komissiya üzvləri seçki bülletenlərinin çapına başlanması ilə bağlı martın 24-də Milli Məclisin Mətbəəsində keçirilən tədbirdə iştirak ediblər. Seçki bülletenlərinin çap olunması prosesi və bu məqsədlə Mətbəədə yaradılmış şəraitlə yaxından tanış olan MSK sədri bülletenlərin Seçki Məcəlləsində nəzərdə tutulmuş vaxtda və qaydada çap edilməsi və aşağı seçki komissiyalarına verilməsinin dəqiqliklə yerinə yetirilməsi üçün tövsiyələrini verib.



Prezident seçkilərinin iştirakçısı olan bütün maraqlı subyektlər, beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları və kütləvi informasiya vasitələri üçün tamamilə açıq və şəffaf həyata keçirilən proses barədə jurnalistlərə açıqlamasında MSK sədri bildirib ki, seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər Seçki Məcəlləsinə əsasən MSK-nın qərarı ilə müəyyən olunub. Prezident seçkiləri ilə əlaqədar 5347803 (beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç) seçki bülleteninin çap olunması nəzərdə tutulub. Seçki bülletenləri çap olunduqca qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından isə məntəqə seçki komissiyalarına veriləcək.

Tədbir çərçivəsində MSK sədri kütləvi informasiya vasitələri üçün təşkil olunan brifinqdə seçkilərin yüksək səviyyədə təşkil olunub, azad, ədalətli və şəffaf keçirilməsi həyata keçirilmiş layihələr və son hazırlıq işləri barədə ətraflı məlumat verib, həmçinin jurnalistlər tərəfindən ünvanlanmış sualları cavablandırıb. Seçki bülletenlərinin çap olunması prosesinin mühafizəsi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir.

## Məzahir Pənahov: "Bülletenlərin çapı prosesi bir həftə ərzində başa çatacaq"



Aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar 5 milyon 347 min 803 seçki bülleteninin çapı nəzərdə tutulub. Bu rəqəm ümumi seçicilərin sayından 3 faiz artıqdır. AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov deyib. Bülletenlərin mətni, forması, sayı və hazırlanma qaydasının MSK-nın qərarı ilə təsdiq olunduğunu deyən Məzahir Pənahov qeyd edib ki, proses bir həftə ərzində başa çatacaq. Bülletenlərin çapı tam başa çatdıqdan sonra dairə seçki komissiyalarına paylanılmağa başlanacaq.

MSK sədri bildirib ki, səsverməyə beş gün qalana qədər Komissiya bülletenləri dairələrə çatdırmalıdır. Dairələr bülletenləri qəbul etdikdən sonra seçkilərə 3 gün qalana qədər məntəqələrə paylamalıdır. Bülletenlərin aşağı seçki komissiyalarına çatdırılması prosesi KİV-in müşahidələri ilə həyata keçiriləcək.

Dairə seçki komissiyalarının bülletenləri Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada qəbul edəcəyini deyən Məzahir Pənahov vurğulayib ki, çap zamanı yararsız bülleten olarsa aktlaşdırıldıqdan sonra məhv edilir. O, həmçinin əlavə edib ki, mətbəədə gedən çap prosesi KİV nümayəndələrinə, namizədlərə, o cümlədən səlahiyyətli nümayəndələrə və müşahidəçilərə tam açıqdır. Bundan başqa, bülletenlərin çatdırılmasında və qorunmasında aidiyyəti dövlət qurumları ciddi təhlükəsizlik tədbirləri görürlər. Seçki Məcəlləsindən irəli gələrək bülletenlər dairə və məntəqələrə paylanılacaq.

Bülletenlərin çapında hər hansı çatışmazlığa rast gəlinmədiyini deyən MSK sədri mətbəə rəhbərliyinin bu proseslə bağlı böyük təcrübəyə malik olduğunu söyləyib. Məzahir Pənahov, həmçinin qeyd edib ki, bülleten kağızları xüsusi olaraq seçilir. MSK sədri "exit-poll" keçirəcək təşkilatlarla bağlı da məlumat verib. O qeyd edib ki, "exit-poll"da ABŞ və Fransadan təşkilatlar da iştirak edəcək. Ümumilikdə 4 təşkilat müraciət edib. MSK özü də "exit-poll"un keçirilməsində maraqlıdır. Yalnız "exit-poll"da iştirak edən qurumlar qaydaları tam bilməlidir.

## Daxili işlər naziri polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib



Martın 24-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında nazirliyin baş idarə, idarə və ərazi polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aidiyyəti baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə Ramil Usubov ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumilikdə 518 iddiaçının arasından daha hazırlıqlı olan 348 nəfərin daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Tədbirdə çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mükəmməl təhsilli, yüksək mənəvi və işgüzar keyfiyyətlərə, hərtərəfli dünyagörüşə malik gənclərin dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tapşırıqlarını xatırladan nazir bu istiqamətdə hər zaman zəruri addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü siyasətin növbəti əyani təzahürü olduğunu bildirib. General-polkovnik Ramil Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək onlara öz tələb və tövsiyələrini verib.

## Azərbaycanın müdafiə naziri Türkiyəyə səfər edəcək



Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Nurəddin Caniklinin dəvəti ilə martın 28-də Ankaraya səfər edəcək. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Türkiyənin hərbi-siyasi və digər dövlət strukturlarının rəhbərləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulub. Zakir Həsənovun martın 31-də qardaş ölkənin Giresun şəhərində keçiriləcək Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirakı planlaşdırılır.




səs
www.sesqazeti.az
facebook
Ses Media Holding
25 mart 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!



## Qərar dəyişməzdir!

## Nərimanov seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər






Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında Nərimanov rayon gəncləri ilə görüş keçirilmişdir.

Tədbiri Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin apardığı ardıcıl və sistemli islahatlar, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə istər regionda, istərsə də bütün dünyada qazandığı uğurlardan danışdı. T.Tağıyev xalqımızın partiyamızı dəstəkləyəcəyinə və onun namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəyinə təminat verdiyini bildirdi və qeyd etdi ki, bütün bu sadalanan və digər uğurların davamı üçün hər kəsi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırır.

Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev gənclərin arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib, hərbi potensialımız olduqca yüksək səviyyədədir: "Bütün bunlar Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır. Bu uğurların davamı naminə hər bir Azərbaycan gənci 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməlidir".

Milli Məclisin Regional Məsələlər Komitəsinin sədr müavini, Respublika Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov Azərbaycanda bütün sahələrdə sürətli inkişaf getdiyini deyərək qeyd edib: "Cənab İlham Əliyev bütün fəaliyyətini ölkə üçün, Azərbaycan xalqı üçün edir. Onun ciddi təbliğata ehtiyacı yoxdur, çünki son on beş il ərzində böyük işlər görülüb.Ona görə də inkişaf, sabitlik üçün hər bir kəs Cənab İlham Əliyevə səs verməlidir".

Daha sonra Bakı Humanitar Kollecinin direktor müavini Rasim Rzaxanov və fəal gənc Nigar Ağayeva çıxış edərək, hər zaman olduğu kimi, bu seçki prosesində də fəal iştirak edəcəklərini və YAP tərəfindən irəli sürülmüş namizədi dəstəklədiklərini vurğuladılar. YAP Nərimanov rayon gənclər birliyinin sədri Yusif Babanlı və Nərimanov rayon Gənclər və İdman İdarəsinin sədri Nəcəf Novruzov çıxış edərək bildirdilər ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Möhtərəm Prezidentimiz İlham Əliyev hakimiyyətdə olduğu 15 il ərzində Azərbaycanı dünyanın aparıcı və lider dövlətinə çevirib. Qeyd edilib ki, gənclər bu il ölkədə keçiriləcək prezident seçkilərində yaxından iştirak edərək, layiqli namizəd olan Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirin sonunda xatirə şəkli çəkildi və bununla da tədbir öz işini başa vurdu.

## Beyləqanlılar uğurlu gələcəyə səs verəcəklər

Dünən 11 aprel prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Beyləqan rayon şöbəsinin seçki qərargahın üzvləri,





rayonun Mil, Milabad və Yeni Mil kəndlərində seçicilərlə növbəti görüş keçiriblər.

Ardı Səh. 5

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 4

Bayram əhval-ruhiyyəsi, böyük ruh yüksəkliyi ilə keçən görüşdə millət vəkili Şahin İsmayılov, “Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev və YAP Mərkəzi Seçki Qərargahının Beyləqən rayon şöbəsinin seçki qərargahın üzvləri iştirak ediblər.

Görüşdə Mərkəzi Seçki Qərargahının Beyləqan rayon şöbəsinin sədri Rəfail Pəsiyev YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-2018-ci illər ərzində Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən, sürətli iqtisadi inkişafa nail olmasından danışıb. Qeyd edib ki, Prezident İlham Əliyev bütün fəaliyyəti dövründə Azərbaycanın milli maraqlarını, vətəndaşlarının mənafeyini müdafiə edib, onların sosial rifah halının daha da yaxşılaşdırılması üçün siyasət həyata keçirib. Rayon təşkilatı sədri ölkəmizdəki uğurlarının davamlılığını təmin etmək üçün seçiciləri ölkəmizin gələcək inkişafına səs verməyə çağırıb.

Millət vəkili Şahin İsmayılov çıxışında ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanın qazandığı möhtəşəm tarixi nailiyyətləri qeyd edərək, ölkəmizdə həyata keçirilən genişmiqyaslı və çoxşaxəli işlər, eləcə də, qarşıda duran strateji hədəf və məqsədlər haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, bu müddət ərzində Azərbaycan xalqının vahid Lideri olan İlham Əliyev müstəqil Azərbaycan dövlətinin Qurucusu və Banisi Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirərək, onu müasir tələblər və çağırışlar nəzərə alınmaqla, daha da təkmilləşdirmişdir: “Cənab İlham Əliyevin rəhbərliyi ilə, xalqımızın milli mənafelərinə müvafiq olaraq, həyata keçirilən genişmiqyaslı işlərin əhəmiyyəti ölçüyəgəlməzdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin düşünülmüş, cəsarətli və uzaqgörən siyasəti nəticəsində, Azərbaycan sözün əsl mənasında, iqtisadi və siyasi cəhətdən müstəqil, hüquqi bir dövlətə çevrilmişdir. İctimai-siyasi həyatımızın bütün sahələrini əhatə edən əsaslı islahatlar daha da dərinləşmiş və şaxələnmişdir”.

O, belə bir inkişaf dövrünü Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə yaşayan xalqımızı, bütün bunlara rəğmən, Azərbaycanın gələcək inkişafı naminə Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən “Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin dövlət və xalq üçün gördüyü xeyirli-gərəkli fəaliyyətindən danışıb. Bildirib ki, ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların tam həcmdə və vaxtında yerinə yetirilməsi, məhz Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasətinin məntiqi nəticəsidir. O, qeyd etdi ki, Cənab İlham Əliyev siyasətinin prioritet istiqamətlərindən birini təşkil edən sosial siyasət sahəsində həyata keçirilən ardıcıl, məqsədyönlü işlər sayəsində vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində önəmli nəticələr əldə edilmiş və cəmiyyətimizin sosial həyatının bütün sahələrində indiyə qədər görünməmiş nəticələr qazanılmışdır: “Biz bu gün gələcəyimizə çox inamla baxırıq, çünki biz gələcəyə müdrük dövlət xadimi, uzaqgörən və cəsarətli siyasətçi, güclü şəxsiyyət, dünya liderləri arasında xüsusi yeri və mövqeyi ilə seçilən Liderimiz - İlham Əliyevlə gedirik”.

B.Quliyev seçiciləri Azərbaycanın işıqlı, uğurlu və etibarlı gələcəyi naminə xalqımızın Lideri İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən seçicilər ümumxalq səsverməsində, həmişə olduğu kimi, yaxından iştirak edəcək və hamılıqla Ulu Öndər Heydər Əliyevin siyasi ideyalarının layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.





## Azərbaycanın uğurlarının davamlı olmasına səs verək!

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası uğurla davam etdirilir. Dünən Qubanın Zərqova İnzibati Ərazi Dairəsində seçicilərlə növbəti görüş keçirilib.

Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək bildirib ki, ölkəmiz daha bir siyasi proses - növbəti prezident seçkiləri ərəfəsindədir: “Ötən seçkilərdə olduğu kimi, bu seçkilərdə də partiyamızın namizədi Cənab İlham Əliyevin qalib gələcəyinə kimsə şübhə etmir”.

Rayon təşkilatının sədri bildirib ki, bu qələbəni şərtləndirən başlıca amil Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 15 il ərzində həyata keçirilən siyasət və əldə edilən uğurlardır: “Bütün dünyanın iqtisadi böhrandan əziyyət çəkdiyi bir zamanda, Azərbaycan öz inkişaf tempini qoruyub-saxlayaraq, beynəlxalq aləmdəki mövqeyini daha da möhkəmləndirməkdədir. Bu da təsadüfi deyil. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və dövlətimizin qüdrətlənməsinin təminatı olan davamlı inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə uğurla davam etdirilir”. Y.Abidov onu da əlavə edib ki, Azərbaycan vətəndaşları, o cümlədən, qubalılar Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevi alternativsiz Lider kimi qəbul edir, Onun uğurla davam etdirdiyi siyasi və iqtisadi islahatlar kursunu tam dəstəkləyirlər. Rayon təşkilatının sədri Azərbaycanın gələcək inkişafı naminə seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Daha sonra təbliğat qrupunun üzvləri Rüfət Hacıyev, Həsən Günəşli və Zamik Haşımov çıxış edərək, son 15 ildə ölkəmizdəki tarixdə görünməmiş möhtəşəm quruculuq işləri aparıldığını bildiriblər. Çıxış edənlər seçiciləri Cənab İlham Əliyevə səs verəməyə çağırıblar.

## Cənab İlham Əliyev demək, yüksəliş, inkişaf və tərəqqi deməkdir!





Yeni Azərbaycan Partiyasının Ucar rayon təşkilatı təbliğat-təşviqat qrafiki üzrə yerlərdə seçicilərlə görüşlərini davam etdirir. Bununla bağlı Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri dünən rayonun Yuxarı Şilyan kəndində seçicilərlə növbəti görüşü keçirib.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin sədri Şəhla Abdullayeva bildirib ki, artıq martın 19-dan etibarən təbliğat-təşviqat kampaniyasına start verilib və partiyamızın bu günə kimi seçicilərlə keçirilən görüşləri, onu deməyə əsas verir ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək.

Təbliğat qrupunun üzvüləri Alı Babayev, Rahib Rəsulov və Milli Məclisin deputatı Vüsal Hüseynov çıxış edərək vurğulayıblar ki, Azərbaycan bu gün bütün dünyanın hesablaşdığı güclü bir dövlətdir. Natiqlər bu uğurların davamlılığı üçün ucarlıları Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər adından Yuxarı Şilyan kənd tam orta məktəbin müəllimi İlqar Əliyev çıxış edərək, Ulu Öndər Heydər Əliyevə və Onun layiqli davamçısı Cənab İlham Əliyevə həsr olunmuş şeir deyib. Kənd sakinləri adından Nazir Məmmədov çıxış edərək, ötən 15 ildə Cənab İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etdiyini vurğulamaqla, seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər.

## Masallı seçiciləri böyük qələbələrə və uğurlara səs verəcək

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Masallı rayon şöbəsinin seçki qərargahı prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Qızılağac və Təzəkənd kəndlərində seçicicilərlə növbəti görüş keçirib. Görüşü giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədr müavini Səfalı Paşayev açaraq bildirdi ki, qarşıdan gələn 11 aprel seçkiləri xalqımız üçün əsl bayram əhval-ruhiyyəsi yaradır: “Çünki Cənab Prezidentimizin ölkədə apardığı abadlıq-quruculuq işləri, təhsilə, səhiyyəyə, mədəniyyətə, orduya, və digər sahələrə ayırdığı diqqət hər kəsin gözü qarşısındadır. Azərbaycanda son zamanlar dünya səviyyəli tədbirlərin keçirilməsi, transmilli layihələrin gerşəkləşməsi və sair müsbət halları hər gün kütləvi informasiya vasitələrindən oxuyur, mavi ekranlardan görürük”.





Səfalı Paşayev qeyd edib ki, Cənab İlham Əliyevin verdiyi bütün vədlər real həyatda öz əksini tapıb: “Mən bir daha sizləri bir vətəndaş olaraq, konstitusion hüquqlarınızdan istifadə edərək, Azərbaycan dövlətinin gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən bu seçki prosesində fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış Cənab İlham Əliyevə səs verməyə çağırıram.

Ardı Səh. 6

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 5

Biz inanırıq ki, Azərbaycan xalqı növbəti dəfə Cənab İlham Əliyevi dəstəkləyəcək, Azərbaycanın daha da güclənməsinə səs verəcək".

Tədbirdə çıxış edən Fərhad Abbasov, Hüseyn Əliyev, Əkrəm Qafarov və başqaları seçiciləri qarşıdan gələn prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Qeyd olunub ki, Cənab İlham Əliyevə səs vermək möhtəşəm nailiyyətlərin davamlı olmasına, iqtisadiyyatımızın daha da inkişafına və vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəlməsinə səs vermək deməkdir.

## Qərar dəyişməzdir- İlhamla irəli

### Siyəzən rayonunun Sədan kənd seçiciləri ilə görüş keçirilib

11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Heydər oğlu Əliyevin seçki-təşviqat kampaniyası çərçivəsində dünən Siyəzən rayonu Sədan



kənd seçiciləri ilə görüş keçirilib. Tədbiri YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, Prezident Əliyevin 2003-2018-ci illərdə ölkəyə başçılıq etdiyi müddətdə Azərbaycanın bütün sahələr üzrə sürətli inkişaf yolu keçdiyindən, bu gün vətənimizin dünyada sayılıb-seçilən ölkələrlə bir sırada qərarlaşmasından, əhalinin sosial-rifah halının yaxşılaşdırılması istiqamətində atılan qətiyyətli addımlardan, ölkənin siyasi, iqtisadi, mədəni və sosial sahələrində aparılan islahatlardan danışıb. E.Heydərov, həmçinin, bildirib ki, məhz Prezidentin fəaliyyəti nəticəsində, ölkəmiz hərtərəfli inkişaf edərək bu gün rəqabətədavamlılıq dərəcəsinə görə dünya ölkələri arasında 35-ci yerdə qərarlaşıb: "Bütün bunlar Cənab İlham Əliyevin titanik fəaliyyəti ilə bağlıdır". Daha sonra YAP Siyəzən rayon təşkilatının sədr müavini Mircəlal Kazımzadə, çıxış edərək əmin olduğunu bildirdi ki, seçicilərimiz builki prezident seçkilərində də haqqa, ədalətə, inkişafa, YAP-ın namizədi hörmətli İlham Heydər oğlu Əliyevə səs verəcəklər".

## "İqtisadi inkişafa və tərəqqiyə səs verəcəyik"

### Astara rayonunda seçicilərlə növbəti görüş keçirildi

Dünən YAP Astara rayon təşkilatı təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirib. YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov görüşdə çıxış edərək bildirib ki, astaralılar 11 aprel 2018-ci il tarixdə seçki məntəqələrinə gələrək iqtisadi inkişafa, tərəqqiyə, siyasi sabitliyə - YAP-ın namizədi Cənab İlham Əliyevə səs verəcəklər. Tədbirdə çıxış edən ağsaqqallar Ələskər Əliyev, Aydın Məcidov, Suparibağ məktəbinin direktoru Nazənin Məmmədova və başqaları YAP-ın namizədi Cənab İlham Əliyevin Azərbaycan dövlətinə misilsiz xidmətlərindən, həm-





çinin, Astara rayonunda görülən quruculuq-abadlıq işlərindən danışıblar. Görüşdə iştirak edən seçicilər aprelin 11- də keçiriləcək prezident seçkilərində fəal iştirak edəcəklərinə, Yeni Azərbaycan Partiyasının namizədi olan Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

### Cəlilabadda "İlhamla irəli" şüarı ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Yeni Azərbaycan Partiyası Cəlilabad rayon təşkilatı 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində YAP-ın namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniya-





sını böyük uğurla , seçicilərin yüksək siyasi fəallığı şəraitində davam etdirir.

Kampaniya çərçivəsində rayonun Şorbaçı kəndində seçicilərlə keçirilən görüşdə rayon təşkilatının şura üzvləri Vüqar Cavadov və Xəlil Süleymanov iştirak ediblər. Çıxış edən Vüqar Cavadov son 15 il ərzində qazanılan uğurlardan danışıb və vətəndaşları 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verməyə çağırıb.

Rayonun Ağdaş ərazisinin seçiciləri ilə görüşdə də insanlar seçki günü aktiv olmağa dəvət olunub.

### Yevlaxlı gənclər "İlhamla irəli" deyir

Dünən Yevlax şəhərində ilk dəfə səs verəcək seçicilərlə görüş keçirildi. Toplantını giriş sözü ilə YAP Yevlax rayon təşkilatının sədri, Milli Məclisin deputatı İlham Məmmədov açaraq, bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da demokratik seçki mühitinin formalaşdığından, hər bir azərbaycanlının Prezidenti Cənab İlham Əliyevin daim xalqın içəri-





sində olub, xalqına göstərdiyi yüksək qayğı və diqqətdən bəhs etmişdir. Tədbirdə YAP Yevlax rayon təşkilatının sədr müvini, aparat rəhbəri Əli Quliyev çıxış edərək Cənab Prezidentin ölkə gəncliyinə göstərdiyi qayğıdan da ürək dolusu söz açmışdır. Bildirmişdir ki, Yevlax şəhərində gənclər üçün yaradılan şəraiti bu qayğının parlaq təzahürü kimi dəyərləndirilir.

Tədbirdə çıxış edən YAP Yevlax rayon təşkilatı qadınlar şurasının sədri Əminə Yusifqızı Möhtərəm Prezidentimizin ölkəyə rəhbərlik etdiyi 15 ildə əldə olunan uğurlardan danışdı. O, sürətli inkişafdan, Azərbaycanın dünyanın inkişaf etmiş ölkələrinə sürətlə inteqrasiya etməsindən danışaraq, dövlət başçısının uğurlu daxili və xarici siyasətinin ölkəmizin xalqımızın xöşbəxt gələcəyinin və firavan güzəranının etibarlı təminatçısı olduğunu vurğulamışdır. Natiq əminliklə qeyd etmişdir ki, növbəti seçkilərdə də xalq bu reallıqları nəzərə alaraq, bir daha Cənab İlham Əliyevin namizədliyini dəstəkləyəcəkdir.

### Balakən seçiciləri milli təhlükəsizliyimizin qarantına səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin təbliğat qrupu rayonun Qabaqçöl qəsəbəsində yerləşən 2 saylı peşə məktəbinin həyətində Qəsəbə seçiciləri ilə görüş keçirib. Görüşü Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin təbliğat qrupunun üzvü Ömər Osmanov açaraq 11 apreldə keçiriləcək prezident seçkiləri haqqında görüş iştirakçılarına məlumat vermişdir. O, Yeni Azərbaycan Partiyasından prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illərdə gördüyü işlər barəsində iştirakçılara məlumat vermiş və onların seçki günü seçki məntəqələrinə gələrək, milli təhlükəsizliyimizin qarantı Cənab İlham Əliyevə səs verməyə çağırmışdır. Görüşdə qəsəbə ağsaqqalı- müəllim Ramazan Xutrayev geniş çıxış etmiş, gəncləri, ana-bacıları, 11 aprel seçkilərində fəal olmağa, müstəqilliyimiz, gələcəyimiz, güclü ordumuz, dayanıqlı iqtisadiyyatımız və gələcək təhsilimiz naminə Cənab İlham Əliyevə səs verməyə çağırmışdır.

Ardı Səh. 7

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 6

Tarix müəllimi Həybullah Atayev, gənc müəllimlər adından Nərgiz Mustafayeva ilk dəfə səs verən gənclərə müraciət etmiş, onları 11 aprel seçkilərində fəallıq göstərməyə və Cənab İlham Əliyevə səs verməyə səsləmişlər. Təqaüdçü





həkim Ramazan Xanayev Azərbaycan səhiyyəsinin inkişafında Cənab İlham Əliyevin fəaliyyətindən danışmış və səhiyyə işçiləri adından əmin etmişdir ki, Yeni Azərbaycan Partiyasından prezidentliyə namizədi Cənab İlham Əliyevin qələbəsinin şübhə doğurmadığını bildirib. Rayon seçki qərargahının üzvü Rəhim Tağıyev tədbirdə geniş çıxış etmiş, müstəqilliyin ilk illərindən başlayaraq, Azərbaycanın əldə etdiyi uğurlardan danışmışdır. Bildirmişdir ki, hamılıqla seçki günü məntəqələrə gedərək, YAP-ın namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

## Qaraçuxurlular alternativsiz LİDERİ seçəcək

Dünən Yeni Azərbaycan Pariyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşünü Qaraçuxur qəsəbə sakinləri ilə keçirib. Görüşdə 400 nəfərdən artıq seçici iştirak edib.



Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov 11 apreldə keçiriləcək prezident seçkilərində əhalini fəal olmağa səsləyib. V.Seyidov siyasi baxışlarından asılı olmayaraq, hər kəsin, birmənalı olaraq, qəbul etdiyi reallığın Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi problemlərin həlli və bütün sahələrdə vüsət alan inkişaf, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı və ölkəyə rəhbərliyi sayəsində mümkün olduğunu qeyd edib: "Elə bunun nəticəsidir ki, Azərbaycan xalqı hələ 2003-cü ildən bəri keçirilən prezident seçkilərində Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi olan Cənab İlham Əliyevin namizədliyini dəstəkləməklə, Ulu Öndərin siyasi xəttinin davam etdirilməsinə tərəfdar olduğunu, birmənalı tərzdə ortaya qoyub. Necə ki, 2003-cü ildə biz alternativsiz Liderimizi seçərək, Onu ölkəmizə rəhbər təyin etdik, elə bu gün də, hesab edirəm ki, yenidən ən layiqli namizədə səsimizi verəcəyik".

Milli qəhrəman Cavanşir Rəhimovun anası Lalə Rəhimova çıxışında ölkədə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan bəhs edib və yenidən hər kəsi əmin-amanlığımız naminə, gələcək uğurlarımız naminə bütün sakinləri Cənab İlham Əliyevə səs verməyə səsləyib.

Milli Məclisin deputatı Ağacan Abiyev çıxışında Azərbaycanın yeni dövrünün iqtisadi inkişaf strategiyasına, çevik və işlək mexanizmlər üzərində həyata keçirildiyi, proqressiv islahatlara əsaslanan siyasətə səs verməyə çağırdı.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi", idman ustası Hicran Şərifov Azərbaycanı beynəlxalq arenada tanıtdıran, inkişafın Azərbaycan modelini dünyaya bəyan edən Cənab İlham Əliyevin siyasi kursunu dəstəkləməyə hər kəsi çağıraraq, işıqlı gələcəyə səs verməyə dəvət edib.

## Qobustanlılar ölkənin tərəqqisini məhz Cənab İlham Əliyevin Azərbaycana rəhbərliyində görürlər

Dünən tərtib olunmuş qrafikə uyğun olaraq, Qobustan rayonunun Cəmcəmli kəndində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin seçicilərlə görüşü böyük ruh yüksəkliyi ilə keçirilib.





Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev seçiciləri salamladıqdan və onları Novruz bayramı münasibətilə təbrik etdikdən sonra, Prezident Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 15 il ərzində əldə olunan uğurlardan və inkişafdan ətraflı bəhs edib. Dövlət başçısının Ümummilli Lider Heydər Əliyev siyasətini uğurla, müasir tələblərə uyğun və yeni çalarlarla davam etdirdiyini bildirib. Füzuli Gülaliyev bir qobustanlı kimi rayonda gedən bu inkişafdan, tərəqqidən, quruculuqdan fərəh hissi duyduğunu və Prezidentimizə təşəkkür etdiyini bildirərək, bütün seçiciləri seçki məntəqələrinə gedərək, Cənab İlham Əliyevə səs verməyə səsləyib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin üzvü Zümrüd Şərifova qeyd edib ki, hazırda dünya qlobal problemlər və təhlükələrlə üz-üzə olduğu zaman Azərbaycan xalqını bu bəlalardan hifz etmək dövlətimizin başçısının üzərinə düşür və O, bu missiyanı yüksək səviyyədə yerinə yetirir. Məhz buna görə Zümrüd Şərifova böyük əminliklə bildirib ki, xalqımız belə bir qətiyyətli lideri yenidən ölkəyə prezident seçəcək və qobustanlıların 11 aprel 2018- ci ildə bir seçimi var, o da, məhz Cənab İlham Əliyevdir. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin üzvü Cahangir Ağaməmmədov qobustanlıları bu seçkidə də düzgün seçim edərək, Cənab İlham Əliyevə səs verməyə səsləyib və xüsisilə, qeyd edib ki, Cənab İlham Əliyevin ötən illərdə önəm verdiyi bütün sahələrin hərtərəfli inkişafı, ölkənin iqtisadi və siyasi sferasının möhkəmlənməsini təmin etməsini nəzərə alaraq, bir daha ölkəmizin qüdrətli olması üçün məhz yenidən Cənab İlham Əliyevə səs verməliyik.

Tədbirdə şəhid anası Göyçək Hüseynquliyeva bütün analar adından çıxış edərək bildirib ki, ölkəmizdə əmin-amanlığı, sülhü təmin etmiş Cənab İlham Əliyev bizim ən əziz balamızdır, biz onu çox istəyirik və hamımız Ona səs verəcəyik.

Görüşlərdə kəndin axundu Hacı Qüdrət 98 nəvə və nəticə sahibi olan Cəmcəmli kənd sakini Gülbəxt Mətləbova, kənd sakinlərindən Fazil Abıyev, Rizvan Bədəlov, Ziyafət Bayramova və başqaları çıxış edərək, ölkədə aparılan köklü islahatlardan bəhs edib, bu istiqamətdə Cənab İlham Əliyevin uğurlu siyasət həyata keçirdiyini vurğulayıblar və 11 aprel 2018- ci ildə seçki məntəqələrinə gələrək sabitliyə, uğurlu gələcəyə və Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Şamaxılılar Cənab İlham Əliyevin rəqibsiz lider olduğunu bildiriblər

Dünən Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatı təbliğat qrupunun üzvləri ilə, qrafikə uyğun olaraq Məlikçobanlı, Göylər və Çöl-Göylər kəndlərində seçicilərilə görüş keçirib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şamaxı rayon şöbəsinin seçki qərargahının üzvü Eyvaz Eminaliyev açıb və görüş iştirakçılarına Azərbaycanda gedən islahatlar,





iqtisadi inkişaf, tərəqqi və bir çox sahələrdə nailiyyətlərdən danışaraq, bu uğurların əldə olunmasında Cənab İlham Əliyevin fəaliyyətinin danılmaz olduğunu vurğulayıb. İnkişaf etməkdə olan Azərbaycan cəmiyyətinin müvəffəqiyyətlərinə imza atan Cənab İlham Əliyevin alternativsiz lider olduğunu bildirən Eyvaz Eminaliyev seçiciləri layiqli liderə, Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə seçki qərargahının üzvləri Ağarza Bayramov, Tünzalə Yusifova, Fatma Quliyeva, Səməd Fətəliyev, Namik Rzazadə, Şahmar Hüseynov, Hacıbaba Şıxıyev və Güllü Babaşova seçicilərin suallarına cavab verməklə yanaşı, ən doğru seçim olaraq, Cənab İlham Əliyevə səs verəcəklərinə əminliklərini ifadə etdilər.

Ardı Səh. 8

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 7

Keçirilən görüşlər, ümumilikdə, 19, 20, 21 və 22 saylı məntəqələrdə qeydiyyatda olan 600-dən yuxarı seçicini əhatə edib və bu görüşlər yüksək əhval-ruhiyyə ilə keşirilib. Həmin məntəqənin seçiciləri yekdilliklə Prezident İlham Əliyevə səs verəcəklərini və Onun rəqibsiz lider olduğunu bildiriblər.

## Ağcabədi seçiciləri işıqlı gələcəyə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin təbliğat qrupu Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonunun Yeni Qaradolaq kəndində seçicilərlə növbəti görüşü keçirilmişdir.





Görüşü Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin seçki qərargahının sədr müavini Nazim Bünyatov açaraq, seçiciləri prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə tanış edib: "Biz 11 aprel 2018-ci il tarixdə keçiriləcək seçkilərə də "İlhamla irəli" şüarı ilə gedirik. Devizimiz "Ölkənin inkişafı, insanların rifahı naminə" devizidir. Prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramının əsas mahiyyətini Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirmək, əhalinin maddi rifah halını yüksəltmək və respublikamızı beynəlxalq aləmdə tanıtmaqdan ibarətdir. Cənab İlham Əliyevin Prezidentliyi dövründə ölkəmiz görünməmiş bir inkişaf yolu keçmişdir. Məhz buna görə də, biz inanırıq ki, siz seçicilər, bu xidmətlərinə görə yenidən Cənab İlham Əliyevə səs verəcəksiniz".

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin təbliğatçıları, rayon Ağsaqqallar Şurasının sədri Əlizadə Nəcəfov, YAP Ağcabədi rayon şöbəsinin şura üzvü İbrahim Həsənov, YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri Radə Qafarova çıxış edərək, 2003-2018-ci illərdə ölkədə bərqərar olan iqtisadi yüksəliş, regionların iqtisadi inkişafı Dövlət Proqramının uğurla həyata keçirilməsi, ümumdaxili məhsulun və ölkənin valyuta ehtiyatının artması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, kənd təsərrüfatının və sənayenin inkişafı barədə öz fikirlərini bölüşərək, bu nailiyyətlərin əldə edilməsində əvəzsiz xidmətlərinə görə seçiciləri Cənab İlham Əliyevə səs verməyə səslədilər.

Görüşdə seçicilər adından çıxış edər Bayram İsmayılov, Leyla Əliyeva, Hacı Hacıyev xalqın rifahı və ölkənin inkişafı naminə gördüyü böyük işlərə görə 11 aprel 2018-ci il tarixdə seçki məntəqələrinə gələrək, İlham Heydər oğlu Əliyevə səs verəcəklərini böyük ruh yüksəkliyi ilə bildirdilər.

## Ağdaşlılar Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklər

11 aprel 2018-ci il tarixinə təyin olunan Azərbaycan Respublikasının Prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdaş rayonun Abad, Pirəzə, Ağzıbir və Kotavan kəndlərinin seçiciləri ilə görüş keçirilmişdir. Görüşdə çıxış edən millət vəkili Cavid Osmanov görüş iştirakçılarına son illər ərzində Cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi uğurlar haqqında geniş məlumat verdi. Daha sonra ölkədə aparılan abadlıq-quruculuq işləri haqqında söz açaraq, bütün bunların Yeni Azərbaycan Partiyasının Sədri, Cənab Prezidentimiz İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsi olduğunu qeyd etdi. Ağdaş camaatının qədirbilən bir





camaat olduğunu söyləyən Cavid Osmanov ağdaşlıların həmişə dövlətə-dövlətçiliyə sadiqlik nümayiş etdirdiklərini görüş iştirakçılarının diqqətinə çatdırdı.

Seçicilərin coşqu ilə iştirak etdiyi görüşlərdə çıxış edən sakinlər Qalibə Əliyeva, Nofəl Məmmədov, Ceyran Əhmədova, Lətif Mustafayev və Araz Kərimov bildirdilər ki, onlar bütün seçki kampaniyalarında fəal şəkildə iştirak ediblər və Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin yürütdüyü siyasətdən razıdırlar. Məhz 11 apreldə keçiriləcək Azərbaycan Respublikasının Prezident seçkilərində də bunun qarşılığı olaraq Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər.

Görüşdə təbliğat qrupunun üzvlərindən Tənzilə Şıxıyeva və Vaqif Hacıyev çıxış edərək, seçiciləri ölkəmizin gələcək inkişafı naminə Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

## Binəqədililər Cənab İlham Əliyevi dəstəkləyəcəklər

YAP Binəqədi rayon təşkilatında prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş rayon seçiciləri ilə keçirilib.






Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov bu il aprelin 11-də keçiriləcək prezident seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin siyasi fəaliyyətinə ətraflı diqqət yönəldib. Ölkə Prezidentinin iqtisadiyyat, kənd təsərrüfatı, ictimai-siyasi sabitlik, ordu quruculuğunun inkişafı sahələrində mühüm və təxirəsalınmaz islahatlar həyata keçirdiyini bildirib. R.Göyüşov, eyni zamanda, dövlət başçısı Cənab İlham Əliyevin uğurlu və məqsədyönlü xarici siyasəti haqqında fikirlərini bölüşüb. Çıxışında bütün seçiciləri qarşıdan gələn prezident seçklərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

YAP-ın Siyasi Şurasının üzvü Elmar Qasımov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə müxtəlif sahələri əhatə edən uğurlu siyasi strategiyanı ətraflı təhlil edib. Bir çox müsəlman ölkələrini cənginə alan fəlakətlərdən ətraflı bəhs edərək, bunun fonunda Azərbaycanın sürətlə inkişaf etdiyini və dünya dövlətləri ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb. E. Qasımov YAP Binəqədi rayon təşkilatının fəaliyyətinə də toxunaraq, onun partiyanın ən qabaqcıl və fəal rayon təşkilatlarından biri olduğunu bildirib. Cənab İlham Əliyevin seçki kampaniyasının yüksək səviyyədə qurulduğunu bildirərək, bütün seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin deputatı Kamaləddin Qafarov çıxışında qeyd edib ki, Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev ideyalarının ən layiqli davamçısı olaraq daim ölkəmizin inkişafı və xalqımızın rifahı üçün çalışıb. O, bütün seçiciləri bu ilin 11 aprel tarixində keçiriləcək Prezident seçkilərinə gedərək, Yeni Azərbaycan Partiyasının namizədi, xalqımızın layiqli siyasi rəhbəri Cənab İlham Əliyevə səs verməyə dəvət edib.

Yeni Azərbaycan Partiyasının fəalı Aslan Mehdiyev isə çıxışında kənd təsərrüfatının inkişafından ətraflı danışıb. A.Mehdiyev Prezident İlham Əliyevin siyasi qətiyyəti və rəhbərliyi altında tezliklə erməni işğalı altındakı torpaqları-

# Xalq İlham Əliyevə "HƏ" deyir!

mızın işğaldan azad olunacağına əminliyini bildirib. Bütün seçiciləri Cənab İlham Əliyevin ətrafında sıx birləşərək, dəstək olmağa çağırıb.

Görüş seçicilərin bir sıra suallarının cavablandırılması ilə başa çatıb.

## Zaqatala seçiciləri siyasi sabitliyə səs verəcək

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampanyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi Mamrix və Gözbarax kəndlərində seçicilərlə görüş keçirib. Görüşdə 300-ə yaxın seçici iştirak edib.






Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin sədri Habil Qurbanov 2003-2018-ci illərdə Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında möhtəşəm tarixi nailiyyətlər qazandığını vurğulayıb. Qeyd edib ki, dünyada qlobal maliyyə böhranının getdikcə dərinləşməsi ilə müşayiət olunan bir zamanda, ölkəmizdə həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, bütün sahələrdə uğurlar və yeniliklər əldə edilmişdir: "Bu gün Azərbaycanı bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanıyırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi, ölkəmizdəki ictimai-siyasi sabitlik sayəsində Azərbaycan hər sahədə inkişaf edir". H.Qurbanov seçiciləri Azərbaycanın daha da çiçəklənməsi və uğurlu gələcəyi üçün YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin sədr müavinləri Əsgər Məmmədov, Xanım İsayeva və Namidə Süleymanova, YAP Zaqatala rayon təşkilatının şura üzvü Tahir Məmmədov və başqaları çıxış edərək, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən bu günə kimi Azərbaycanın iqtisadi həyatında yeni bir dövrün olduğunu, ölkənin iqtisadi həyatı ilə bağlı yeni mənzərənin meydana çıxdığını bildiriblər. Bu dövrdə ölkədəki inkişaf və baş verən yeniliklərin prinsipləri Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar, uğurla davam etdirilməklə yanaşı, müasir dövrün tələbləri qarşısında bəzi keyfiyyət dəyişiklikləri ilə zənginləşdiyini vurğulayıblar. Ölkə Prezidenti Cənab İlham Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü işlərdən danışaraq, seçiciləri gələcək uğurların və sabitliyin davamlı olması üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Cənab İlham Əliyevlə qələbədən-qələbəyə

Dünən YAP Sabunçu rayon təşkilatı Maştağa Mədəniyyət Evində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təşviqat-təbliğat kampaniyası çərçivəsində seçicilərlə görüş keçirdi.








Tədbiri giriş sözü ilə açan rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirdi ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanının sürətli inkişafı dünya ölkələri içərisində nüfuzumuzu və qüdrətimizi artırıb: "İnsanların sosial vəziyyəti günbəgün yaxşılaşır, həyat səviyyəsi yüksəlir. Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin və möhkəm iradəsinin məntiqi nəticəsi olaraq, hətta bütün dünya üçün çətin olan son illərdə də ölkəmizin inkişafı davam etdirilib. Bütün sahələrdə olduğu kimi, son illər Azərbaycan Prezidenti İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət və verdiyi sərəncamlar bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub".

Rayon təşkilatı sədri bildirdi ki, Azərbaycan dünya miqyasında ən sabit, ən inkişaf edən ölkələrdəndir və bu firavanlığı və inamı bizə bəxş edən Cənab İlham Əliyevə minnətdarıq! Bizim hər birimiz bütün azərbaycanlıların lideri İlham Əliyevə səs verəcəyik: "Bu zəfərlərə doğru gəlin birlikdə addımlayaq! Azərbaycanı İlham Əliyevin müdrik siyasəti ilə qələbələrdən-qələbələrə aparaq!"

Görüşdə çıxış edən millət vəkili Dilarə Cəbrayılova qeyd etdi ki, ölkə Prezidenti İlham Əliyevin dövlətimizin inkişafı, əhalinin sosial-rifah halının yaxşılaşdırılması naminə apardığı məqsədyönlü fəaliyyəti hamımızın gözü qarşısındadır. Tikilən yeni məktəblər, səhiyyə ocaqları və müasir görünüşlü inzibati binalar ölkəmizin simasını dəyişir. Biz ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyir, cəmiyyətimizin bütün üzvlərini Onun ətrafında sıx birləşməyə çağırırıq.

Seçicilərdən Ümidə Məcnunlu çıxış edərək, 11 aprel prezident seçkilərində Ulu Öndər Heydər Əliyev kursunun layiqli davamçısı, alternativsiz lider Cənab İlham Əliyevə səs verəcəyini bildirdi.

Tədbir konser proqamı ilə davam etdi.

## YAP Lənkəran rayon təşkilatı təbliğat kompaniyasını uğurla davam etdirir

YAP Lənkəran rayon təşkilatı təbliğat kompaniyasını çərçivəsində rayonunun Osaküçə, Sinovli, Günəhir, Bəliton, Türkəncil kəndlərində seçicilər ilə görüş keçirib. Görüşü






açıq elan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Lənkəran rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Ağacəfər Fətullayev bildirib ki, Azərbaycanda qazanılan hər bir qələbənin əsas mənbəyi xalqın ulu öndər Heydər Əliyev yoluna inamı və sədaqətidir: "Azərbaycan xalqı prezident seçkilərində YAP-ın namizədinə səs verməklə bir daha sabitliyi, əmin-amanlığı və inkişafı dəstəklədiklərini təsdiq edəcəklər."

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Lənkəran rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvlərindən K.Kazımov, G.Bağırov, R.İbadov və S.Məmmədov çıxış edərək, son 15 il ərzində qazanılan nailiyyətlərdən, iqtisadi uğurlardan, ölkəmizdə hökm sürən əmin- amanlıqdan bəhs etdilər. Seçiciləri 11 aprel 2018-ci ildə keçiriləcək Prezident seçkilərində fəal iştirak etməyə və YAP-ın vahid namizədi cənab İlham Heydər oğlu Əliyevə səs verməyə çağırdılar.

# Cənab İlham Əliyev idmançıların hamisi və alternativsiz namizədidir

## *Bu sahəni təmsil edən seçicilərin də şüarı "İlhamla irəli"dir!*

***Azərbaycan dövləti və xalqı mühüm siyasi-ictimai hadisə ərəfəsindədir - aprelin 11-i növbəti 7 il üçün Azərbaycanın Prezidentinin, xalqın liderinin seçiləcəyi gün kimi tariximizə yazılacaq. Artıq respublikanın bir çox cəmiyyət və ictimaiyyət nümayndələri öz seçimlərini etdiklərini vurğulayaraq, bu seçimin Cənab İlham Əliyev olduğunu bildirirlər. Bu gün "İlhamla irəli" şüarı ölkəmizin bütün bölgələrinin şüarına çevrilib və bu dəstəyin kütləviliyi müxtəlif sahələri təmsil edən insanlarımızın fikirlərində də qeyd edilir.***



Məhz bu xüsusda, idmançılarımızın da seçimi bəllidir. Əksər seçicilər kimi idmançılar da Azərbaycanın hərtərəfli inkişafının müəllifi olan, ölkəmizi dünyada söz sahibi edən, xalqın sosial müdafiəsinin təminatını əsas hədəf seçən və nəhayət, idmanımızın və idmançılarımızın əvəzsiz hamisi olan Cənab İlham Əliyevə səs verəcəklərini əminliklə bildirirlər.

Əlbəttə, bu alternativsiz qərarın verilməsi heç də təsadüfi sayıla bilməz. Məsələn, bir çoxlarının yadındadır ki, SSRİ dağıldıqdan sonra bütün sahələrdə olduğu kimi, idman sahəsində də durğunluq hökm sürürdü. Azərbaycanın idman bazaları baxımsızlıq üzündən və maliyyə çatışmazlığından fəaliyyətlərini dayandırmaqla yanaşı, respublika gənclərinin idmana marağı da azalmışdı. Azərbaycan müstəqillik əldə etdikdən sonrakı illərdə, yəni 1993-cü ilə qədər peşəkar məşqçilər və idmançılar Azərbaycanı tərk edərək, başqa ölkələrə üz tutur, onların bayraqları altında çıxış edirdilər. Yalnız Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra idmana maraq yenidən artmağa başladı və bu sahə dövlətin prioritet istiqamətlərindən biri olaraq diqqətə alındı. Ümummilli Lider ölkənin digər problemlərinin başdan aşmasına baxmayaraq, idmanın da inkişafı üçün bir sıra sərəncamlar imzaladı, mühüm tədbirlər gördü. Beləliklə, idman sahəsində yenidən canlanma yarandı. İlk növbədə, idmançılara qayğı göstərildi, onların məşq etməsi və yarışlara qatılması üçün maliyyə vəsaiti ayrıldı, federasiyaların fəaliyyətinin canlanması üçün hər cür dəstək verildi. Bunun da sayəsində ölkəmizi tərk etmiş tanınmış məşqçilər və idmançılar Azərbaycana qayıtdılar və yenidən beynəlxalq yarışlarda ölkəmizi təmsil etməyə başladılar.

Azərbaycan idmanında növbəti yüksək sıçrayış isə Cənab İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra başladı. Onu da qeyd edək ki, Cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinə prezident seçilməsi idman ictimaiyyətinin Ona çoxsaylı müraciətləri sayəsində baş verdi. Çünki məşqçilərimiz, idmançılarımız bilirdilər ki, Cənab İlham Əliyev idmana böyük maraq göstərir və onun inkişafı üçün çalışır. Bu baxımdan, Cənab İlham Əliyevin Olimpiya hərəkatının rəhbəri kimi qısa dövrdə fəaliyyəti idman ictimaiyyətinin yanılmadığını göstərdi. Belə ki, qısa müddətdə bütün köhnə idman bazaları təmir edildi, yeni Olimpiya mərkəzləri tikildi. Özü də bu mərkəzlər təkcə Bakı və digər böyük şəhərlərdə deyil, bütün bölgələrdə inşa olundu. Artıq Azərbaycanda 50-yə yaxın Olimpiya mərkəzləri, kompleks və qurğuları fəaliyyət göstərir ki, gənclərimiz bu mərkəzlərdə sağlam bədəndə sağlam ruh şüarı ilə məşqlər edir, idmanın müxtəlif sahələri üzrə yüksək titullara sahib olaraq, bayrağımızı birincilər sırasında dalğalandırırlar. İdmanın inkişafı istiqamətində Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan davamlı işlər, həyata keçirilən layihələr son 15 ildə əldə edilən uğurların sırasında müstəsna yerini tutmaqdadır. Aradan keçən dövr də göstərdi ki, Cənab İlham Əliyevin həyata keçirdiyi bu siyasət düzgündür. Bu gün istər Olimpiya, istərsə də digər beynəlxalq yarışlarda Azərbaycan bayrağının yüksəldilməsində və himnimizin səslənməsində bölgələrdə yetişən idmançıların da böyük rolu var.

Daha bir önəmli faktı xatırlatmaq olar: Cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçilərkən Sidney Olimpiadasına iki ildən bir qədər çox vaxt qalırdı. Buna baxmayaraq, Azərbaycan idmançıları həmin Olimpiadada yüksək yer qazanmaq üçün var qüvvələri ilə məşq edirdilər. Çünki onlara Milli Olimpiya Komitəsinin rəhbərliyi tərəfindən hər cür maddi və mənəvi dəstək göstərilirdi. Belə qayğı idmançılarımıza həm də mənəvi cəhətdən ruh verir, onların üzərinə böyük məsuliyyət qoyurdu. Olimpiyaçılarımız yaxşı başa düşürdülər ki, onlara uzaq Sidneydə ölkəmizi təmsil və təbliğ etmək imkanı verilir.

Sidney Olimpiadasında idmançılarımız 2 qızıl, 1 gümüş medalla vətənə qayıtdılar. Bu da başlanğıc üçün böyük nailiyyət idi. Çünki Azərbaycanın müstəqil ölkə kimi Olimpiya hərəkatında iştirak etməyinin tarixi o qədər çox deyildi. Sonrakı illərdə Cənab İlham Əliyevin qayğısı sayəsində Olimpiya Hərəkatında qələbələrimizin sayı ildən-ilə artmaqda davam etdi. 2016-cı ildə Rio-de-Janeyro Olimpiadasında qazanılan medalların sayı 18-ə çatdı. Bu, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınması demək idi. Belə olmasaydı, Olimpiya hərəkatında qazandığımız bu uğurlar xarici ölkə mütəxəssisləri və kütləvi informasiya vasitələri tərəfindən də yüksək qiymətləndirilməzdi. Sözsüz ki, bu uğurların əldə edilməsində Azərbaycan idmançıları, ilk növbədə, Cənab İlham Əliyevə minnətdardırlar. Çünki onlara bu nailiyyətlərin əldə edilməsi üçün yaradılan bütün şərait, məhz Cənab İlham Əliyevin sayəsində ərsəyə gəlmişdir. Məhz bunun sayəsində Azərbaycan iştirak etdiyi 6 Olimpiya oyunlarında 44 medal qazanıb. Maraqlıdır ki, atletlərimiz hər Olimpiadada medal sayında əvvəlki rekordu təzələyiblər: Atlanta (1996) - 1 medal, Sidney (2000) - 3 medal, Afina (2004) - 5 medal, Pekin (2008) - 7 medal, London (2012) - 10 medal və nəhayət, Rio -18 medal! Olimpiya yığmamız Sidneydə 199 ölkə arasında 34-cü, Afinada 202 ölkə arasında 50-ci, Pekində 205 ölkə arasında 39-cu, Londonda 204 ölkə arasında 30-cu yeri tutmuşdusa, son Olimpiadada medalların sayına görə isə Azərbaycan 15-ci yerə yüksəldi. Medal sayına görə MDB-də 2-ci, müsəlman dövlətləri arasında 1-ci, Avropa qitəsində 7-ci yeri tutmağımız Azərbaycan idmanının əsl təntənəsi idi.

I Avropa Oyunlarına qədər də Azərbaycanda müxtəlif idman növləri üzrə beynəlxalq və qitə yarışları uğurla keçirilirdi. Həm bu amil, həm də ölkəmizdə mükəmməl infrastrukturun və təcrübənin olması Avropa Olimpiya Komitəsinin diqqətindən yayınmadı. Buna görə də, I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi barədə Cənab Prezidentə müraciət edildi və bu müraciət müsbət qiymətləndirildi. Mübaliğəsiz demək olar ki, ölkəmiz I Avropa Oyunlarını keçirməklə həm tarix yazdı, həm də bu oyunların standartını müəyyən etdi. Belə ki, xarici ölkələrin idman ictimaiyyətinin rəhbərləri, kütləvi informasiya vasitələri etiraf etdilər ki, I Avropa Oyunları həm təşkilati, həm də yarışların açılışı və bağlanışının möhtəşəmliyi baxımından dünya Olimpiya yarışlarından geri qalmadı. Üstəlik, Azərbaycan Rusiyadan sonra bu yarışlarda ən çox medal qazanaraq, ikinci yeri tutdu. Təsəvvür edin ki, Avropanın inkişaf etmiş və əhalisinin sayı bizdən qat-qat çox olan ölkələri bizim qədər medal qazana bilmədilər. Beləliklə, Avropa güclülərinin güclüsü olduq! Ölkəmizdə keçirilən ikinci belə möhtəşəm yarış isə İslam Həmrəyliyi Oyunları oldu. Artıq 4-cü dəfə idi ki, bu yarışlar keçirilirdi. Lakin əvvəlki İslam Həmrəyliyi Oyunları Bakıdakı kimi olmamışdı. İstər texniki hazırlıq baxımından, istər yarışların gedişi, istərsə də təntənəli açılış və bağlanış mərasimləri əvvəlki yarışlardan daha möhtəşəm idi. Bu yarışlarda Azərbaycan daha çox medal qazanaraq, lider oldu.

Göründüyü kimi, Cənab İlham Əliyevin Prezident kimi ölkənin ümumi inkişafına göstərdiyi xidmətlərlə bərabər, idmanda da yüksək nailiyyətlərin əldə olunmasında böyük əməyi var. Özü də bu xidmət təkcə idman infrastrukturunun yaradılması ilə məhdudlaşmır. Bu gün Azərbaycanda hər bir idmançıya fərdi yanaşılır və onun problemləri həll olunur. Məlumdur ki, müəyyən yaş həddindən sonra idmanla vidalaşmaq lazım gəlir. Dövlət başçısının qayğısı sayəsində belə idmançılar ixtisaslarına uyğun işlə, ehtiyacı olanlar isə mənzillə təmin edilir. Yəni ölkə qarşısında xidməti olan idmançılar karyeralarını bitirdikdən sonra da unudulmurlar. Bütün bunlarsa, o deməkdir ki, ölkəmizin və idmanımızın gələcək inkişafı da yalnız Cənab İlham Əliyevlə mümkündür. Ona görə də, Cənab İlham Əliyev idmançıların hamisi olmaqla yanaşı, həm də prezident seçkilərindəki alternativsiz namizədidir və aprelin 11-də bu reallıq özünü növbəti dəfə isbatlayacaq!

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycan idmançılarının seçimi İlham Əliyevdir

*Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin vitse-prezidenti, ikiqat Paralimpiya çempionu İlham Zəkiyevin yap.org.az-a müsahibəsi*

***- Azərbaycan çox mühüm bir siyasi hadisə - prezident seçkiləri ərəfəsindədir. Ötən dövrə baxdıqda məlum olur ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişafın əhatə etdiyi istiqamətlərdən biri idman sahəsidir. İdmanın inkişafı istiqamətində görülən işləri və əldə edilən nəticələri necə qiymətləndirirsiniz?***



- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev idmanın inkişafına xüsusi diqqət və qayğı göstərir. Buna görə də ölkəmiz son illərdə idmanın inkişafı is-



tiqamətində mühüm uğurlar qazanıb, idmançılarımız isə Azərbaycanı beynəlxalq idman yarışlarında layiqli şəkildə təmsil ediblər. Prezident İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə Azərbaycanın hər bir bölgəsində idman arenalarının, müasir komplekslərin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi ölkəmizdə böyük idmançı ordusunun formalaşmasını şərtləndirib, idmanın kütləviliyi təmin edilib.

İdmançılarımızın olimpiadalarda, beynəlxalq səviyyəli mötəbər yarışlarda qazandıqları uğurlar sayəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Başqa sözlə, idmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. Birinci Avropa Oyunlarında Azərbaycan idmançıları 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmağa müvəffəq oldular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. Bütün bunlar Azərbaycanda idmana dövlət qayğısının müsbət nəticələrini və idmanın inkişaf səviyyəsini əyani göstərir.

***- Cənab İlham Əliyev idmançılara xüsusi diqqət və qayğı göstərməsi cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. İdman ictimaiyyətinin nümayəndəsi olaraq siz də bu diqqət və qayğını öz üzərində hiss edən şəxslərdən biri kimi nə deyə bilərsiniz?***

- Qeyd etdiyim kimi, respublikamızda idmanın qısa müddətdə yüksək inkişaf səviyyəsinə çatması, idmançılarımızın beynəlxalq arenada böyük uğurlar qazanması birbaşa bu sahəyə göstərilən dövlət qayğısı ilə bağlıdır. Cənab İlham Əliyev həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin (MOK) rəhbəri kimi Azərbaycanda idmanın kütləviliyinin təmin olunmasına böyük diqqət yetirir. Təsadüfi deyil ki, ölkəmizdə idmanın maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi, idmançıların sosial-məişət məsələlərinin həllinin daim diqqət mərkəzində saxlanılması gənclər arasında idmana böyük maraq oyadıb. İdmançıların xüsusi diqqət və qayğı ilə əhatə olunması idmanın inkişafını stimullaşdırmaqla yanaşı, bu sahədə qarşıya qoyulan bütün hədəflərə çatmağa imkan verir.

Biz idman ictimaiyyətinin nümayəndələri olaraq həmişə dövlətimizin və şəxsən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yüksək diqqət və qayğısını hiss etmişik. Bu diqqət və qayğı bizim üçün əlavə stimul yaradıb. Hər zaman çalırışıq ki, dövlətimizin başçısının inam və etimadını doğrultdaq. Həmişə möhtərəm Prezidentimizin yüksək diqqət və qayğısına layiq olmağa çalışırıq.

***- Bütün bu uğurların fonunda əminliklə demək olarmı ki, idman ictimaiyyətinin seçimi məhz cənab İlham Əliyevdir?***

- Möhtərəm Prezidentimiz idmançıların böyük dostu və hamisidir. İdman ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə idmanın inkişafı istiqamətində həyata keçirilən tədbirləri, görülən işləri yüksək qiymətləndirirlər. Eyni zamanda, bu sahədə əldə edilən nailiyyətlər beynəlxalq idman ictimaiyyəti tərəfindən də təqdir olunur. Bu, təsadüfi deyil, çünki Azərbaycanda çoxsaylı idman yarışları, o cümlədən Avropa və Dünya çempionatları, olimpiya və qeyri-olimpiya idman növləri üzrə çempionatlar keçirilir. Azərbaycan sülh, dostluq və əməkdaşlıq dəyərlərini özündə ehtiva edən Olimpiya hərəkatının təşviqinə böyük dəyər verir. Avropa Oyunlarının standartlarını müəyyənləşdirən, IV İslam Həmrəyliyi Oyunlarına uğurla ev sahibliyi edən Azərbaycan tolerantlığı, sivilizasiyalararası dialoqu təşviq etməklə yanaşı, Şərq ilə Qərb arasında körpü rolu oynadığını nümayiş etdirir.

Bütün bu uğurlar Azərbaycanda idmanın inkişafına göstərilən qayğının sayəsində əldə olunur, paralel surətdə Azərbaycan beynəlxalq Olimpiya hərəkatına da öz töhfəsini verir. Bütün bu reallıqlar və nailiyyətlərin fonunda əminliklə deyə bilərik ki, idman ictimaiyyətinin seçimi bəllidir: Azərbaycanın idman ictimaiyyəti cənab İlham Əliyevi dəstəkləyir!

# "700 min ağac əkək"

*Xaçmazda Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirib. "700 min ağac əkək" kampaniyası çərçivəsində keçirilən aksiyada 3000 ağac əkilmişdir.***

Ağacəkmə aksiyasında Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatının şura üzvləri, ilk partiya təşkilatının sədrləri, ümumilikdə, 400 nəfərə yaxın partiya fəalı iştirak etmişdir.

***ZÜMRÜD***





İlhamla irəli 11 Aprel 2018 www.yap.org.az #İlhamlairəli
SƏS
www.sesqazeti.az
facebook Ses Media Holding
25 mart 2018-ci il

# Milyonlarla insanın amalı budur ki, İlham Əliyev yenə də dövlət başçısı seçilsin və Azərbaycanın inkişafı bundan sonra da davam etsin

## *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin yap.org.az-a müsahibəsi*

***- İstərdik ki, söhbətimizin əvvəlində Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 15 ildə ölkəmizin keçdiyi yola qısa nəzər salasınız. Bəhs olunan dövrdə respublikamız hansı uğurlara imza atıb?***

- Son 15 ildə Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişaf parametrlərinə görə dünyada analoqu olmayan uğurlara imza atıb. Ölkədə cəmiyyət həyatının bütün sahələri yenilənib və müasirləşib, əhalinin rifah halı müqayisəolunmaz dərəcədə yaxşılaşıb, sabitlik və təhlükəsizlik mühiti tam təmin edilib, respublikanın beynəlxalq nüfuzu artıb.

Respublikanın iqtisadi potensialının gücləndirilməsinə yönələn siyasət yaxşı nəticələr verib. Müqayisələr apardıqda aydın şəkildə görünür ki, son 15 ildə bütün dünyada Azərbaycan kimi sürətlə inkişaf edən ölkələrin sayı çox az olub. Bəhs olunan dövrdə milli iqtisadiyyatımız 3 dəfədən çox genişlənib, ölkəyə müxtəlif mənbələrdən 231 milyard dollar həcmində sərmayələr yönəldilib.

Respublikamız xarici mənfi təsirlər nəticəsində yaranan yeni şəraitdə də iqtisadi inkişafın ardıcıllığını təmin edir ki, bunun da əsasında yeni iqtisadi modelə keçidin uğurla təmin edilməsi amili dayanır. Əslində, Azərbaycanda son 15 ildə müxtəlif istiqamətlər üzrə islahatlar həyata keçirilməsi davamlı səciyyə daşıyıb. Son iki ildə isə islahatlar daha intensiv şəkildə həyata keçirilir. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixində imzaladığı Fərmanla təsdiqlənən milli iqtisadiyyat perspektivi və onun 11 sektoru üzrə strateji yol xəritələri yaxın, orta və uzunmüddətli dövrlərdə ölkəmizin hərtərəfli inkişafına hesablanıb.

Son 15 ildə müxtəlif istiqamətlərdə dövlət əsaslı vəsait qoyuluşunun böyük həcmlərlə ölçülməsinə baxmayaraq, Azərbaycan paralel şəkildə strateji valyuta ehtiyatlarını artırmağa nail olub. 2004-cü ildə respublikamızın strateji valyuta ehtiyatları cəmi 1,8 milyard dollara bərabər idi. Ötən 15 il ərzində bu göstərici əhəmiyyətli dərəcədə artaraq 44 milyard dollara çatıb. Hazırda Azərbaycanın valyuta ehtiyatları ölkənin ümumi daxili məhsuluna bərabərdir ki, bu da olduqca yaxşı göstəricidir. Öz növbəsində strateji valyuta ehtiyatlarının artması ölkənin iqtisadi müstəqilliyinin təmin olunmasında mühüm rol oynayır.

Bütün bu deyilənlərdən o qə-



naət hasil olur ki, son 15 ildə Azərbaycan güclü dayaqlara malik ölkəyə çevrilib və özünün iqtisadi müstəqilliyini tam təmin edib. Öz növbəsində iqtisadi müstəqilliyin təmin edilməsi ölkənin siyasi müstəqilliyini şərtləndirir. İqtisadiyyatı çökən bir ölkə heç vaxt siyasi cəhətdən müstəqil ola bilməz. Belə ölkələr, bir qayda olaraq, başqa dövlətlərin yedəyində getmək məcburiyyətində qalırlar. İşğalçı Ermənistanın miskin vəziyyəti buna misaldır.

***- Hadi müəllim, siz Milli Məclisin Əmək və sosial siyasət komitəsinə rəhbərlik edirsiniz. İstərdik ki, Prezident İlham Əliyevin fəaliyyətində ana xətti təşkil edən sosial siyasət barədə ətraflı məlumat verəsiniz.***

- Azərbaycan sosial dövlətdir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun maraqları dayanır. Dövlət başçısının siyasi iradəsi son 15 ildə respublikamızda insanların həyat şəraitinin yaxşılaşmasına, gəlir imkanlarının artırılmasına yönələn konkret addımlarda öz əksini tapıb. Başqa sözlə desək, ölkəmizdə Prezident İlham Əliyevin nümayiş etdirdiyi siyasi iradə və qətiyyət sayəsində davamlı iqtisadi inkişaf, aparılan islahatlar bilavasitə insanların mənafelərinə yönələn dərin məzmunlu sosial siyasətlə tamamlanır. Azərbaycanı fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, ölkəmizdə insanların gəlir imkanları getdikcə artır, həmçinin cəmiyyətin bütün təbəqələri dövlət dəstəyindən bəhrələnirlər. Təkcə onu qeyd etmək kifayətdir ki, 2003-cü illə müqayisədə yoxsulluq göstəricisi 44,7%-dən 4,5%-ə enib, əhalinin nominal gəlirləri hər nəfərə bir ildə 8,3% artıb.

Sosial dövlət olan Azərbaycanda Ermənistanın işğalçılıq siyasəti ucbatından doğma ev-eşiyindən didərgin düşən 1 milyondan artıq soydaşımızın sosial problemlərinin həlli, o cümlədən də onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması da davamlı olaraq diqqət mərkəzində saxlanılır. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, son 15 ildə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə 6 milyard manatdan çox vəsait ayrılıb. Müvafiq Dövlət proqramlarına əsasən respublikanın müxtəlif bölgələrində məcburi köçkünlər üçün 100-ə yaxın müasir yaşayış kompleksi salınıb, 265 min köçkün yeni mənzillə təmin olunub. 2018-ci ildə daha 20 min köçkünün yeni evlərlə təmin edilməsi nəzərdə tutulub.

***- Yeni iş yerlərinin yaradılması da prioritet istiqamət kimi müəyyənləşdirilib.***

- Elədir. Ölkə Prezidenti İlham Əliyevin qətiyyəti sayəsində əhalinin məşğulluq, əmək bazarına inteqrasiya imkanları genişlənir. Dövlət başçısı əmək tutumlu iş yerlərinin yaradılması məqsədilə orta və kiçik sahibkarlığın inkişafına xüsusi diqqət yetirir. 2016-cı ilin əvvəllərindən başlayaraq möhtərəm Prezidentimiz İlham Əliyev bu istiqamətdə çoxlu sayda Fərman və sərəncamlar imzalayıb. Bunun sayəsində də respublikamızda iqtisadi aktivlik artıb, kənd təsərrüfatı, emal sənayesi, turizm, xidmət sektoru inkişaf edərək genişlənib. Həyata keçirilən davamlı və məqsədyönlü tədbirlərin nəticəsi olaraq son 15 ildə ölkədə 200 minə yaxın yeni iş yerləri yaradılıb və işsizlik 5 faizədək aşağı salınıb ki, bu da dünya üzrə ən yaxşı göstəricilərdən biridir.

Respublikamızda insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində həyata keçirilən səmərəli tədbirlər sırasında özünüməşğulluq proqramının reallaşdırılmasının önəmini xüsusi qeyd edə bilərik. Bu proqram 7 aprel 2016-cı il tarixli müvafiq Sərəncam əsasında 2017-ci ilin əvvəlindən reallaşdırılır. Proqrama uyğun olaraq aztəminatlı insanlar müvafiq dövlət dəstəyi göstərilməklə layiqli əmək fəaliyyətinə cəlb edilirlər.

Qeyd edək ki, özünüməşğulluq layihəsi çərçivəsində 76 şəhər və rayon üzrə 1172 ailə aktivlərlə təmin edilib.

Ölkə üzrə özünüməşğulluq proqramının əhatə dairəsi getdikcə daha da genişləndiriləcək. Təkcə cari ildə respublika miqyasında öznünüməşğulluq sisteminin daha da genişləndirilməsinə 36 milyon manat vəsait yönəldilməsi nəzərdə tutulub. Beləliklə, ölkədə minlərlə yeni iş yerləri yaradılacaq və ələbaxımlılıqdan özünüməşğulluğa keçidin yeni bir istiqaməti geniş vüsət alacaqdır.

***- Son illərdə ölkəmizdə həmçinin pensiya sistemində də ciddi islahatlar aparılıb. Bu barədə də söhbət açmağınızı xahiş edirik.***

- Bu, geniş bir söhbətin mövzusudur. Ötən il Milli Məclisdə qəbul etdiyimiz qanunlardan biri də pensiya islahatları ilə bağlı idi. Təkcə bunun sayəsində keçən il 8 minə yaxın ümumi həcmdə pensiyaçıların sayı artıb, pensiyaya çıxıb çalışanların böyük bir qrupuna 20 milyon manata yaxın əlavə vəsait ödənilib. Aparılan islahatların nəticəsi olaraq bu il ötən il üçün pensiyaların təkcə sığorta hissəsi yox, bütöv məbləğ indeksasiya olunub ki, bu da əlavə xeyli vəsaitin ödənilməsi deməkdir.

Azərbaycan Prezidentinin cari il fevralın 9-da imzaladığı "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncamı pensiyaçıların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində növbəti addımdır. Hesab edirəm ki, Sərəncam bütövlükdə əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin uğurlu davamıdır. Bilirsiniz ki, ölkəmizdə 2006-cı il yanvarın 1-dən beynəlxalq standartlara uyğun müasir sığorta-pensiya sisteminin tətbiqi ilə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsinə başlanılıb. Sığorta-pensiya sistemində növbəti islahat tədbiri kimi, "Əmək pensiyaları haqqında" qanuna edilmiş və 2017-ci il iyulun 1-dən tətbiqinə başlanılan mütərəqqi dəyişikliklər bu sistemin tam sığorta prinsipləri üzərində formalaşmaqla uzunmüddətli və etibarlı maliyyə dayanıqlılığına, bazar iqtisadiyyatı şəraitində sosial rifah tələblərinə uyğun layiqli pensiya təminatı imkanlarının artırılmasına xidmət edib. Bu dəyişikliklər həmçinin uzun illər ölkəmizin pensiya qanunvericiliyində mövcud olmuş "əmək pensiyasının baza hissəsi" anlayışının aradan qalxmasına, pensiyaların baza və sığorta hissələrinin birləşdirilərək vahid məbləğ kimi müəyyən edilməsinə səbəb olub. Xatırladım ki, əvvəllər hər ilin əvvəlində əmək pensiyalarının yalnız sığorta hissəsi əvvəlki ilin rəsmi inflyasiya göstəricisi əsasında artırılırdı. Amma cari ildən isə əmək pensiyalarının ümumi məbləğinin ölkə üzrə orta aylıq əməkhaqqının əvvəlki ildəki artım faizinə uyğun indeksləşdirilərək artırılması mexanizminə keçilir. Bu tədbir isə pensiyaçı vətəndaşların sosial maraqlarının daha tam şəkildə təmin olunmasına imkan verir.

Rəsmi məlumatlara əsasən, 1 yanvar 2018-ci il vəziyyətinə görə ölkədə 1 milyon 318 min 434 nəfər əmək pensiyası alır. Dövlət başçısının sözügedən Sərəncamına əsasən əmək pensiyalarının indeksləşdirilərək artırılması pensiyaçıların 1 milyon 236 min nəfərinə və ya 94 faizinə şamil olunacaq. Hesab edirəm ki, bu qərar ölkəmizdə uğurlu sosial siyasətin göstəricisidir və bu siyasət davamlı xarakter daşıyır.

***- Hadi müəllim, siz göz önündə son 15 ildə Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində formalaşan müsbət mənzərəsini canlandırdınız. Demək mümkündürmü ki, keçilən uğurlu yol, qazanılan nailiyyətlər aprelin 11-də insanların öz seçimlərini İlham Əliyevlə bağlamaları üçün əsas olacaq?***

- Sağlam məntiq hansısa başqa bir variantı istisna edir. Son 15 ildə Prezident İlham Əliyevin apardığı siyasət, milli maraqların keşiyində qətiyyətlə dayanması ölkə vətəndaşlarında Ona münasibətdə böyük inam formalaşdırıb. Ölkədəki uzunmüddətli sabitliyin, inkişafın müəllifi İlham Əliyevdir. Respublikamızda cənab İlham Əliyevin titanik fəaliyyətinin nəticəsi olaraq yaranan müsbət reallıqlar insanlarda qürur hissi və gələcəyə böyük inam yaradır. Azərbaycan xalqı 15 ildir ki, hörmətli Prezidentimiz İlham Əliyevin sayəsində firavanlıq şəraitində yaşayır və öz xoşbəxt gələcəyini qurur. Milyonlarla insanın, seçicilərin amalı budur ki, İlham Əliyev yenə də dövlət başçısı seçilsin və Azərbaycanın inkişafı bundan sonra da davam etsin!

Yerlərdən aldığımız məlumatlarda bildirilir ki, təbliğat-təşviqat kampaniyası zamanı respublikanın hər yerində seçicilər, cəmiyyətin bütün təbəqələrinin nümayəndələri dövlət başçısı, YAP-ın Sədri İlham Əliyevə böyük rəğbətlərini ifadə edirlər və seçki günü tərəddüd etmədən Onun namizədliyini dəstəkləyəcəklərini vurğulayırlar. Bilirsinizmi, bu və ya digər vasitələrlə çox az sayda insanı hansısa namizədin tərəfinə çəkmək mümkündür. YAP-ın namizədi İlham Əliyevə münasibətdə isə söhbət ümumxalq məhəbbətindən gedir.

# Xalqımızın növbəti prezident seçkilərində cənab İlham Əliyevə səs verəcəyi şübhəsizdir

## Milli Məclisin deputatı, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi

***- Sevinc xanım, aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcək. Siz hazırda ölkəmizdə mövcud olan seçki mühitini necə dəyərləndirirsiniz ?***

- Azərbaycanda seçkiqabağı mühit, ictimai-siyasi vəziyyət tam normaldır. Prezident seçkiləri kampaniyası və seçkilərə hazırlıq işləri qanunvericiliyə uyğun olaraq uğurla davam edir. Azərbaycanda azad, demokratik və şəffaf seçkilərin keçirilməsi üçün hər cür şərait mövcuddur. Ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür və bu, seçkilərin normal keçirilməsi üçün vacib şərtlərdən biridir. Azərbaycanda azad və şəffaf seçkilərin keçirilməsi üçün zəngin qanunvericilik bazası mövcuddur. Seçki Məcəlləsi, bu sahəni əhatə edən qanun və qərarların mövcudluğu ölkəmizdə beynəlxalq standartlara uyğun seçki qanunvericiliyinin olduğunu təsdiq edir, zərurət yarandıqca seçki qanunvericiliyi təkmilləşdirilir ki, bu da seçkilərin ölkəmizdə daha şəffaf keçirilməsinə xidmət edir. Eləcə də Mərkəzi Seçki Komissiyası, aşağı seçki komissiyaları prezident seçkiləri ilə əlaqədar üzərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Həmçinin seçki proseslərinin uğurlu təşkili və həyata keçirilməsi üçün maddi-texniki təminat məsələləri yüksək səviyyədə həllini tapıb.

Ölkəmizdə indiyə qədər keçirilən seçkilər demokratik keçirilib. Aprel ayının 11-də keçiriləcək seçkilər də ölkənin demokratik inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Azərbaycan dövlətinin bu seçkilərin də azad və şəffaf keçirilməsi üçün güclü siyasi iradəsi var. Aprelin 11-də ölkə vətəndaşları, seçicilər sərbəst şəkildə seçki məntəqələrinə gəlib istədikləri namizədə səs verəcəklər. Hesab edirəm ki, bu seçkilər Azərbaycanın demokratik inkişaf yolunda növbəti bir nailiyyəti olacaq.

***- Seçkilər hər bir ölkənin tarixində yeni bir dövrün, mərhələnin başlanğıcı kimi xarakterizə olunur. Siz necə hesab edirsiniz, növbəti prezident seçkiləri Azərbaycanın tarixində hansı rol oynayacaq?***

- Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan hər bir sahədə böyük uğurlar qazanıb. Ötən 15 il ərzində Azərbaycan istər siyasi, istər iqtisadi, istərsə də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazanıb. Azərbaycanda aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasındadır. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə



Azərbaycanın artan iqtisadi imkanları iqtisadiyyatın bütün sahələrinin paralel inkişafına yönəlib, Azərbaycanda insan kapitalının inkişafına böyük investisiyalar qoyulub. Ölkəmizin hər bir guşəsində böyük fabriklər, zavodlar, səhiyyə müəssisələri, idman və sağlamlıq kompleksləri, müxtəlif müəssisələr istifadəyə verilib. Son 15 ildə Azərbaycanın təşəbbüsü və dəstəyi ilə böyük, transmilli iqtisadi, enerji və nəqliyyat layihələri bütün dünya üçün böyük əhəmiyyət kəsb etməklə, regionun inkişafına layiqli töhfələr verir. Eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu, TAP, TANAP layihələri, Şimal-Cənub nəqliyyat dəhlizi layihələri bütövlükdə dünya üçün əhəmiyyətlidir. Bu faktor Azərbaycana iqtisadi dividendlər gətirməklə yanaşı, ölkəmizin beynəlxalq müstəvidə nüfuzunu da əhəmiyyətli dərəcədə artırır. Azərbaycan 2011-ci ildə 155 dövlətin dəstəyi ilə iki il müddətinə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib və bu dövrdə dünyada sülh və təhlükəsizliyin təmin olunmasına, insan haqlarının müdafiəsinə mühüm töhfələr verib. Həmçinin Azərbaycan dünyada etibarlı tərəfdaş kimi özünü təsdiq edib, ölkəmiz nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilib. Ölkəmizdə "Eurovision", birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları kimi bütün dünyanın diqqət mərkəzində olan mühüm mədəniyyət və idman tədbirləri keçirilib. Təbii ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, Azərbaycan xalqının və dövlətinin mənafeyinin ən yüksək səviyyədə qorunmasına yönəlmiş qlobal fəaliyyət hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirilir və cənab Prezidentin yorulmaz fəaliyyəti xalqımızın bütün təbəqələri tərəfindən dəstəklənir. Onu da qeyd etmək istəyirəm ki, ötən 15 ildə ölkəmiz müdafiə qabiliyyətini də xeyli gücləndirib. Bu gün Azərbaycan Ordusu ən güclü ordular sırasındadır. Ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Bunu 2016-cı ilin aprel döyüşləri bir daha təsdiqlədi.

Bütün bunların fonunda prezident seçkilərindən sonra ölkəmizdə inkişaf prosesləri, Azərbaycanın beynəlxalq müstəvidə mövqeyinin daha da gücləndirilməsi istiqamətində siyasət daha böyük inamla davam etdiriləcək.

***- Sizcə, prezident seçkilərinə beynəlxalq maraq hansı səviyyədədir? Məlum olduğu kimi, seçkiləri xeyli sayda beynəlxalq müşahidəçilər izləyəcək...***

- Əlbəttə ki, seçkilər hər bir ölkənin ictimai-siyasi həyatında çox mühüm hadisədir. Seçkilər dövlətlərin demokratik prinsiplərə, dəyərlərə nə qədər sadiq olduğunu isbatlayan çox mühüm faktordur. Ona görə də seçkilərə beynəlxalq müstəvidə çox yüksək maraq var.

Bilirsiniz ki, Azərbaycanda indiyə qədər keçirilən bütün seçkilərə beynəlxalq maraq çox yüksək olub və hər dəfə xeyli sayda beynəlxalq müşahidə missiyaları ölkəmizdəki seçki prosesini izləyiblər. Doğrudur, bəzi missiyalar məqsədli şəkildə ölkəmizin demokratik imicinə zərbə vurmağa çalışıblar. Amma buna baxmayaraq, sonda xalqımızın iradəsi qarşısında geri çəkiliblər.

Bu mənada, qarşıdan gələn 11 aprel seçkilərinə də beynəlxalq müstəvidə böyük maraq var. Artıq bir sıra beynəlxalq təşkilatlar seçkiləri müşahidə edəcəklərini bəyan ediblər. Həmçinin müvafiq dövlət qurumları, parlament ayrı-ayrı dövlətlərin nümayəndələrini seçkiləri müşahidə etmək üçün dəvət ediblər.

İnanıram ki, 11 aprel seçkiləri də beynəlxalq standartlara tam uyğun olacaq. Və beynəlxalq müşahidə missiyalarının hesabatlarında bu amil xüsusi vurğulanacaq.

***- Sevinc xanım, sizcə, Azərbaycan xalqının seçki əhval-ruhiyyəsi necədir? Xalq növbəti 7 il üçün dövlətin sükanını kimə etibar edəcək?***

- Əlbəttə ki, xalqın əhval-ruhiyyəsi çox yüksəkdir. Buna seçicilərlə görüşlərimiz zamanı şahid oluruq. Şübhə yoxdur ki, aprelin 11-də keçiriləcək prezident seçkilərində xalqımız növbəti dəfə cənab İlham Əliyevə yüksək etimad göstərəcək. Hesab edirəm ki, cənab İlham Əliyevin alternativi yoxdur və qarşıdan gələn seçkilərdə parlaq qələbə qazanacaq. Və növbəti 7 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha möhtəşəm nailiyyətlər qazanacaq.

Mən seçiciləri 11 aprel tarixində seçki məntəqələrinə gəlməyə və liderimiz cənab İlham Əliyevə səs verməyə çağırıram. Azərbaycanın xoşbəxt gələcəyi Heydər Əliyev siyasəti və bu siyasəti uğurla davam etdirən cənab İlham Əliyevin adı ilə bağlıdır.



# Mərkəzi Seçki Komissiyası "exit-poll" keçirmək niyyətində olan təşkilatları qeydə alıb

***Martın 24-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın martın 17-də və 19-da keçirilmiş iclaslarının protokolları təsdiq edilib.***

Sonra 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ("AJF&Associates İnc." təşkilatı (Amerika Birləşmiş Ştatları) ilə birgə), "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi ("Opinion Way" Sosioloji Tədqiqatlar İnstitutu (Fransa) ilə birgə), "ELS" Müstəqil Araşdırmalar Mərkəzi və "Rəy" Monitorinq Mərkəzi tərəfindən "exit-poll" keçirilməsi niyyəti ilə MSK-ya daxil olan müraciətlərə baxılıb. Komissiya qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparılaraq iclasa çıxarılmış müraciətləri müzakirə etdikdən sonra sözügedən təşkilatların qarşıdan gələn prezident seçkilərində "exit-poll" keçirmək üçün qeydə alınması barədə qərar qəbul edib.

İclasda, həmçinin 21 saylı Nəsimi birinci seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişikliklər olunub. Beynəlxalq müşahidə missiyalarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

# Gəncədə "700 min ağac əkək" kampaniyası davam edir

***Gəncə şəhərində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə partiyanın Gəncə şəhər təşkilatı "700 min ağac əkək" kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyası keçirilib. Aksiyada Azərbaycan Respublikası Milli Məclisinin deputatları Naqif Həmzəyev, Xanlar Fətiyev, Pərvin Kərimzadə, YAP Gəncə şəhər təşkilatının idarə heyəti, qadınlar şurası və gənclər birliyinin üzvləri, ziyalılar və partiya fəalları yaxından iştirak ediblər.***



YAP fəalları bayram əhval-ruhiyyəsi ilə davam edən aksiya çərçivəsində Ulu Öndərin adını daşıyan möhtəşəm Heydər Əliyev Park Kompleksinin ərazisində 2500 ədəd şişburun xurma ağacı əkiblər. Partiya fəalları ağac əkməklə yanaşı, ərazidə təmizlik-abadlıq işləri aparıb, ərazini alaq otlarından, daşlardan təmizləyib, yeni əkilən ağacları suvarıb, əvvəllər basdırılan tinglərə aqrotexniki qaydada qulluq göstəriblər.

Keçirilən ağacəkmə aksiyası ilə bağlı fikirlərini bölüşən YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev "700 min ağac əkək" kampaniyasının aprel ayının sonuna qədər davam edəcəyini, Gəncədə yaşıllığın genişləndirilməsinə və ekoloji durumun daha da yaxşılaşdırılmasına öz töhfəsini verəcəyini qeyd edib.

**ZÜMRÜD**

# Xalqın qınağı və xəyanətkar damğası ən böyük cəzadır

***Sivil yollarla, etik normalarla, qəbul edilmiş qaydada, qanun çərçivəsində aparılan siyasi mübarizə ictimaiyyət tərəfindən normal qarşılanır və hətta qanunla müdafiə də olunur. Beynəlxalq təcrübəyə müraciət etsək, görərik ki, dünya dövlətlərinin əksəriyyətində siyasi mübarizənin bu forması mövcuddur və bu mübarizə də, öz növbəsində, cəmiyyətin, dövlətçiliyin inkişafına və insanlığa xidmət edir. Demokratik inkişaf yolu seçmiş Azərbaycan etik normalar və qanun çərçivəsində aparılan siyasi mübarizəyə, demokratik dəyərlərə, söz və ifadə azadlığına geniş spektrdə yer verib, insanların hüquq və azadlıqları qorunur.***



## Qeyri-etik davranışlara münasibət bildirilməli, qınanılmalı və qarşısı alınmalıdır

İnsanların hüquq və azadlıqlarının qorunması təqdirəlayiq olmaqla yanaşı, sui-istifadə edərək, bu dəyərlərin qanunsuzluq müstəvisinə daşınmasına da yolverilməzdir. Söz və ifadə azadlığı adı altında qarşı tərəfin şərəf və ləyaqətinin təhqir olunması, alçaldılması, qeyri-etik davranışlar qəbuledilməzdir və bu qanunsuz əməllər Azərbaycan Respulikası Konstitusiyasının müvafik maddələri ilə tənzimlənir. Azərbaycanın dövlət atributlar, simvolları, vətəndaşlarının şərəf və ləyaqəti qanunla, qanunvericiliklə mühafizə olunur və bu normaların pozulması halları müvafiq qanuni cəza tədbirlərinin tətbiq edilməsini tələb edir. Eyni zamanda, Azərbaycan ictimaiyyətinin, xalqın milli-mənəvi maraqları, əxlaqi dəyərləri qorunur və bundan sonra da bu dəyərlərin mühafizə edilməsi ən prioritet məsələ hesab olunur.

İctimaiyyət, Azərbaycan ziyalıları, müvafiq qurumlar qeyri-etik davranışların, söyüş və təhqirlərin qarşısının alınmasına səy göstərməli, ələlxüsus, bu qanunsuz hərəkətlərin mətbuat səhifələrinə, sosial şəbəkələrə, virtual müstəviyə daşınmasına qarşı münasibət bildirməli, ciddi şəkildə qınanılmalıdır. Etik normalar çərçivəsinə sığmayan hərəkətlər, söyüş və təhqirlər Azərbaycan xalqının mənəvi dəyərlərinə, mental düşüncəsinə ziddir və bütün bunların ənənə halına çevrilməməsi üçün həyəcan təbili çalmağın zamanıdır. Qeyri-əxlaqi çağırışlar, təhqirlə müşayiət olunan polemikalar, şərəf və ləyaqətin alçaldılmasına yönələn ifadələr heç də ifadə azadlığı, söz azadlığı anlamına gəlmir, etik normaların pozulması və qanunsuzluq kimi dəyərləndirilməlidir.

## Mühacirdən əxlaq normalarına sığmayan davranışlara son qoymaq tələb olunur

Saxta sənədlərlə və qanunsuz yollarla Azərbaycanı tərk etmiş, əcnəbi ölkələrdə məskunlaşmış bir sıra mühacirin uzun müddətdir ki, əxlaq normalarına sığmayan davranışları ictimaiyyət üçün sirr deyil və heç də normal qarşılanmır. Azərbaycanın hüdudlarından kənarda məskunlaşmış və mühacir həyatı seçmişlərin təhqir və söyüşlə müşayiət olunan davranışlarına ictimaiyyət tərəfindən sərt reaksiya verilir, tərbiyədən, etikadan kənar hərəkətlərinə son qoyulması tələb olunur. Lakin göründüyü kimi tərbiyəsizliyə son qoymaq imkanında olmadıqları bəlli olur və aydın olur ki, heç bir intellekt, bilik və təcrübə tələb etməyən qeyri-əxlaqi hərəkətlərdən başqa heç nəyə qadir deyillər.

Əxlaqi dəyərlərə hörmətlə yanaşmaq təklif edildiyi zaman və etik normalar müstəvisinə dəvət edildiyi zaman, tərbiyədən kənar davranış şərgiləyənlər bundan bərk ürküb və indi də yeni bir şər planlaşdırılır. Vidadi İsgəndərli, Məhəmməd Mirzəli, Orduxan Teymurxan kimi mühacirlər indi də Azərbaycan hakimiyyətinin onları öldürməyi planlaşdırdığını iddia etməklə, artıq şayiələrdən də istifadə etmək qərarındadırlar. Amma bu şayiələrin də mənasız olduğunun və inandırıcı olmadığının fərqində deyilllər. Əkshalda, bu şayiəni də dövriyyəyə buraxmazdan əvvəl, nəzərə almalı idilər ki, Azərbaycan hökumətinə qarşı şər və böhtan kampaniyaları, həqiqətə uyğun olmayan şayiələrdən istifadə edənlər heç bir nəticə əldə edə bilməyib və ölkəmiz bu təxribatçılara qarşı heç zaman aqressiv reaksiya verməyib. Soros fondu və Sorosun özü kimi dünyaca məşhur bir şər simvolunun əks-təbliğatına, yaydığı şayiələrə məhəl qoymayan dövlət hər küçədən keçən bir neçə cərəsiz, kiminsə əlinə baxan mühacirin şayiəsindən ehtiyatlanacağınımı düşünürlər?

## Orduxanların, mirzəlilərin yeni şayiələri də istehza ilə qarşılanır

Arqumentin olmadığı zaman şər və böhtanlardan, əsassız şayiələrdən istifadə etmək heç bir zaman müsbət nəticə verməyib. Həqiqətə uyğun olmayan istənilən mülahizə, yalan ifadə şər və böhtan hesab olunur, yayılması şayiə kimi qiymətlə Bir halda ki, Azərbaycanın mövqeyinə zidd olan, dövlətçiliyə qarşı qanunsuz əməllər törətmiş istənilən mühacirin, hətta mühacir olmayan əcnəbi ölkə vətəndaşının belə ekstradisiya edilərək, Azərbaycana gətirilməsi və qanunla mühakimə edilməsi mümkündürsə, bu şayiələr nə dərəcədə inandırıcı görünə bilər? Azərbaycan demokratik dəyərlərə qiymət verən və qanunlara istinad edən sivil dövlətdir və cəzalandırılması tələb olunan şəxslər qanunla mühakimə edilir və barələrində konstitusiyanın müvafiq maddələri tətbiq olunaraq, cəza tədbirləri həyata keçirilir.

Vətənə xəyanət edən kəslər təkcə konstitusiya, məhkəmə və qanun müstəvisində deyil, ictimaiyyət qarşısında, Azərbaycan xalqının önündə də cavab vermək məcburiyyətindədirlər. Azərbaycanı nüfuzdan salmaq istəyənlər, milli maraqları, dövlətçiliyi, dövlət atributlarını və simvollarını təhqir edənlər tezliklə, məhz Azərbaycan cəmiyyətinin qarşısında cavab verəcəklər. Unutmamaq lazımdır ki, xalqın öz qınağı, satqınlara ünvanladığı xəyanətkar damğası, əslində, ən böyük cəzadır.

***İnam HACIYEV***

# Saatlı rayonu ərazisində ölümlə nəticələnən ağır yol-nəqliyyat qəzası baş verib



Saatlı rayonu ərazisində ölümlə nəticələnən ağır yol-nəqliyyat qəzası baş verib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Saatlı rayonu, Qaralar kəndində "Mercedes" markalı minik avtomobili və "Shacman" markalı yük avtomobilinin toqquşması barədə məlumat daxil olub. Hadisə yerinə Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq xilasetmə qüvvələri cəlb edilib. Yanğınsöndürən-xilasedicilər minik avtomobilinin sürücüsü, 1987-ci il təvəllüdlü Allahverənov Əli Təşkilat oğlunun cəsədini və müxtəlif xəsarətlər alaraq sıxılmış vəziyyətdə qalmış digər sürücü, 1992-ci il təvəllüdlü Rəsulov Mehman Dövlət oğlunu deformasiyaya uğramış nəqliyyat vasitəsindən çıxarıb və aidiyyəti üzrə təhvil veriblər.

# Türkiyənin Bingöl vilayətində PKK-ya məxsus 26 sığınacaq dağıdılıb



Türkiyənin Bingöl vilayətində PKK terror təşkilatına məxsus 26 sığınacaq məhv edilib. AZƏRTAC xəbər verir ki, təhlükəsizlik qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində terrorçulara məxsus çox sayda partlayıcı və digər ləvazimat ələ keçirilib.



# DADİ-VİDADİ!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Deyir, dəliyə şükür, dad mərdimazar əlindən. İndi orda-burda mərdimazarlardan nə qədər desən var. Hətta o qədər var ki, vurub-çıxıblar Avropaya və həmin mərdimazarlıqlarını oralarda edirlər. Amma kimə, nəyə və niyə? Götürək elə Avropa zibilxanalarını və tualetlərini gəzənləri, ciyərlərini nəcis havası ilə işlədənləri, ya da gecələr bayquşlar tək facebookda, canlı yayımlarda ulayanları. Qardaş, nə vaxt açırsan facebooku, görürsən ki, həmin mərdimazarlar qeyri-leqal fahişəxanalarda, müştərisiz qalmış pozğun qadınlar kimi, laqqırtı vurub "kliyent" toplamaqla məşğuldurlar. Ancaq bütün bunların adını çevirib-qoyublar "siyasət" (?!-R.). Demə, ortada həqiqət, arqumentli fikir olmayanda, söyüş söymək lazımıymış və sanki bunlardan başqa kimsə söyüş-zad bilmirmiş və s. Ancaq yanıldıqları da budur ki, sadəcə, kimsə həmin mərdimazarların səviyyələrinə enmək istəmir. Yoxsa ki, nə var söyüş söyüb, "siyasət" adı altında əsl fahişəlik edənlərin cavablarını verməyə ki..! Ancaq deyəsən, səviyyələrinə enməmək şərti ilə bunların ağızlarının payını elə özlərinə adi olan ifadələrlə verməyin tam zamanı çatıb.

## Qalın və qırmızı peysər...

"Siyasi mühacir" adı ilə Amsterdamın gey klublarının dəlmə-deşiklərində gizlənən Orduxanın öz bacılarını harayasa bağışlayıb, BMT-yə gedəcəyini deyəcək qədər ŞƏRƏFSİZLİYİNİ etiraf etməsi, onun bu şərəfsizliyinə Məhəmmədin, Turalın, Eminin və s. siyasi fahişələrin qahmar çıxması, eləcə də, Bakıdakı "liderlərin" və ətraflarındakıların - Əli Kərimlinin, Cəmil Həsənlinin, Oqtay Gülalıyevin, Qurban Məmmədovun, Vidadi İsgəndərlinin də bu nakişiliyə istədikləri donu geyindirərək, əslində, GERÇƏK OĞR...ŞLIĞI qalın və qırmızı peysərlərinə vurmaqla alqışlamaları özü-özlüyündə hər şeyi bütün çılpaqlığı ilə ortaya qoymaqdadır.

Həəə, Vidadidən demişkən, dad Vidadi İsgəndərli adlı gədənin əlindən ki, dost-doğma atası, rəhmətlik İsgəndər kişinin (hərgah, onun atası barədə Məlikkənd kəndinin sakinləri yalnız xoş sözlər danışırlar! - R.) məzarı üzərindən sadır, peşoy, qısası, sidik qoxulu "siyasət" yürütməklə öz QURUM...QILIĞINI bütün faktorlar üzrə üzə çıxarıb! İnsan deyilən şəxs nə qədər murdar və iyrənc hərəkətlərə rəvac verməlidir ki, atasının qəbiri adından təxribat düzənləyib, sonradan onu başqalarının üzərinə atsın! Beləsinə insan deyil, heç heyvan da deyil, elə birbaşa bilinməz məxluq desək, daha məqbul alınar, məncə. Bəlkə də İsgəndər kişi sağ olsaydı, nanəcib Vidadi barədə təxminən bu sözləri deyərdi: "Mənim belə övladım ola bilməz! Sənin atan mən ola bilmərəm!" Vallah, nə deyəsən axı, DADİ-VİDADİ budur da...

## Erməniliklərı DNA vasitəsilə sübuta yetirilməlidir...

Ümumiyyətlə, baxın və görün ki, Avropada "kişilik mücəssəməsi" adı altında fahişəliklə məşğul olanlar necə ağır və silsilə ifadələrə layiq olan məxluqlardırlar! Elə götürsək, Orduxanın da o biri gəda-güdələrin də dədələrinin, analarının kim olduğu araşdırılmalı və genlərində erməni qanının mövcudluğu laboratoloji əsasda, DNA vasitəsilə sübuta yetirilməlidir. Çünki AZƏRBAYCANLI olan kəs heç vaxt, əsla, bu dığasoyların etdiklərini etməz, edə bilməz, bu, sadəcə, mümkünsüzdür! Azərbaycanlı, kimliyindən asılı olmayaraq, başqalarının ailəsinə qarşı ŞƏRƏFSİZLİK etməz, amma bunlar edirlər, etmək qalsın bir yana, hər gün eyni iyrənc halı təkrarlayırlar. Bu zaman elə bayaqkı tövsiyəni reallaşdırmaq olar. Görək bunların genində nə qədər erməni qarışığı var. Bax, ondan sonra köşəmin dalını guppuldadacağam!

# Seçkilər Azərbaycanın demokratik inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir

***Azərbaycan xalqı artıq müstəqillik dövründə demokratik seçkilərdə iştirak edir. 2005-ci il mayın 11-də dövlət başçısı Cənab İlham Əliyev "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" sərəncam verdi. Sərəncamda deyilir.***

Demokratik seçkilər sabit vətəndaş cəmiyyətinin və hər bir dövlətin mütərəqqi inkişafının əsasını təşkil edir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası bu sahədə əsas prioritetləri müəyyən etmişdir. Onları rəhbər tutaraq Azərbaycanda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli, şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərin hüquqi bazası yaradılmışdır. 1997-ci ildən başlayaraq, Azərbaycan rəhbərliyinin siyasi iradəsinə uyğun olaraq, müasir standartlara cavab verən seçki qanunvericiliyinin təsis edilməsi məqsədilə Azərbaycan Hökuməti ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə yaxından əməkdaşlıq etmişdir. Avropa Şurasının üzvü olduqdan sonra Azərbaycanın bu əməkdaşlıq çərçivəsi daha da genişləndirilmiş və bu prosesə Avropa Şurasının Venesiya Komissiyası da cəlb edilmişdir. Səmərəli əməkdaşlıq nəticəsində, seçki qanunvericiliyinin unifikasiyası məqsədilə, 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsi qəbul edilmişdir. Bu məcəllə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Venesiya Komissiyasının və ATƏT DTİMB-nin Yekun Rəyində bildirilmişdir ki, Seçki Məcəlləsi seçkilərin və referendumun keçirilməsi üçün əksər məsələlərdə beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun olan hərtərəfli çərçivələr nəzərdə tutur.

1995-ci ildən bəri keçirilmiş seçkilərin hər biri əvvəlki ilə müqayisədə seçkilərin beynəlxalq standartlara çatdırılması yolunda irəliyə atılmış bir addım idi və seçkilərə dair beynəlxalq təşkilatların verdikləri rəylərin müqayisəli təhlili bunu sübut edir. Lakin təəssüflər olsun ki, seçkilər sahəsində ciddi tərəqqinin əldə edilməsinə baxmayaraq, bir sıra nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Azərbaycan rəhbərliyinin 10 illik fəaliyyəti, müasir demokratik standartlara cavab verən seçkilərin keçirilməsinə yönəlmiş siyasi iradəsi və həmin iradənin təzahürü olan seçkilər praktikasının ildən-ilə təkmilləşdirilməsi ki, seçkilər zamanı baş verən qanun pozuntularının səbəbləri Azərbaycan rəhbərliyinin siyasi iradəsindən kənardır. Onların səbəblərini bəzi məmurların və seçki komissiyalarının üzvlərinin qeyri-peşəkarlığında və bir çox hallarda məsuliyyətsizliyində və ümumilikdə, "postsovet mentalitetində" axtarmaq lazımdır.

2005-ci ilin noyabrında keçirilməsi nəzərdə tutulan parlament seçkilərinə hazırlıq dövründə və həmin seçkilərin keçirilməsi zamanı bu sahədə baş verə bilən əyintilərin və qanun pozuntularının qarşısını almaq, Milli Məclisə seçkiləri Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəalarına tam uyğun keçirmək, bu sahədə icra hakimiyyəti orqanlarının üzərlərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Mərkəzi Seçki Komissiyasına tövsiyə edilsin ki, seçki rəsmilərinin, o cümlədən, paytaxtdan kənarda işləyəcək seçki rəsmilərinin təlim kurslarından keçməsi məqsədilə müvafiq proqramlar hazırlasın və bu sahədə bütün siyasi qüvvələrlə və beynəlxalq təşkilatlarla hərtərətli əməkdaşlıq etsin.

2. Müəyyən edilsin ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, digər dövlət məmurları seçki prosesinə, qanuna zidd olaraq müdaxilə edərlərsə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, məsuliyyətə cəlb ediləcəklər.

3. Mərkəzi va yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində scçkilərdən sonra siyasi mənsubiyyətə görə vətəndaşların təqib olunmasına yol verməsinlər və bu cür faktlar aşkar olunduqda, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, belə hərəkətlər etmiş şəxslərin məsuliyyətə cəlb olunmaları üçün zəruri tədbirlər görülsün. İzah edilsin ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, İnzibati Xətalar Məcəlləsinin və digər qanunların tələblərinin Azərbaycan Respublikasının vətəndaşları tərəfindən pozulmasına görə onların məsuliyyətə cəlb edilməsi halları siyasi mənsubiyyətə görə təqib kimi qiymətləndirilə bilməz.

4. Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə tapşırılsın, İctimai Televiziya və Radio Yayımları Şirkətinə, özəl televiziya və radio yayımları şirkətlərinə tövsiyə edilsin ki, deputatlığa namizədlərin bərabər əsaslarla təbliğ olunmasını təmin edən proqramlar hazırlaşınlar və siyasi platformaların müzakirəsi məqsədilə müvafiq forumlar təşkil etsinlər.

5. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində ixtisaslaşmış ictimai rəyçilər tərəfindən aparılacaq exit-poll prosesinin aparılmasına lazımi şərait yaratsınlar, həmin prosesin gedişinə, qanuna zidd olaraq, müdaxilə etməsinlər.

6. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində deputatlığa bütün namizədlər üçün kütləvi informasiya vasitələrindən bərabər qaydada istifadə etmələrini və onlar üçün bərabər təbliğ imkanlarının yaradılmasını təmin etsinlər.

7. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində paralel səsvermənin nəticələrinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsinə dair zəruri tədbirlər görsünlər və müvafiq seçki rəsmilərinə zəruri yardım göstərsinlər.

8. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri ərəfəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası vətəndaşlarının toplaşmaq azadlığının, seçki kampaniyası zamanı və seçkilərdən sonra ictimai sabitliyin təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, lazımi tədbirlər görsünlər.

9. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və aşağı seçki komissiyalarına tövsiyə edilsin ki, hər bir seçiciyə vəsiqənin çatdırılmasını təmin etsinlər, seçici siyahılarının dəqiq və dürüst tərtib edilməsi üçün, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, lazımi tədbirlər görsünlər.

10. Yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində dəqiq seçici siyahılarının tərtib edilməsi və həmin siyahıların seçkilərə, ən azı 65 gün qalmış seçki məntəqələrində açıq nümayiş etdirilməsi üçün zəruri tədbirlər görsünlər.

11. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, iqtidaryönlü, mərkəzçi və müxalif siyasi qrupların seçkilərlə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi və peşəkarlığın, təşkilati işlərin yaxşılaşdırılmasına yönəlmiş beynəlxalq donorların texniki yardımından istifadə ilə məşğul olacaq yaranmış kontakt qrupunun toplantısının keçirilməsinə kömək göstərsin.

Demokratik seçki hüququna malik Azərbaycan xalqı demokratik inkişaf yolu ilə uğurla getməkdədir. Azərbaycanda son onilliklə demokratik seçki dövrünün bir sıra uğurları və təbəddülatları ilə yanaşı, siyasiləşmə meyillərinin ifrat güclənməsi ilə də səciyyələndirilə bilər. Sovet imperiyası dövründə siyasətdən uzaqlaşdırılmış və azad fıkirdən demokratik seçki hüququndan məhrum edilmiş xalq belə bir şans qazanan kimi bu istiqamətdəki boşluğu böyük ehtirasla doldurmağa çalışır.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Lakin bizim müstəqillikdən gözlədiyimiz yalnız söz azadlığı, demokratik seçki və siyasi aludəçilik deyildir. Müstəqillik ona görə lazımdır ki, dövlət quruculuğu və sosial təşkilatlanma artıq hansı isə başqa bir qüvvənin deyil, xalqın və millətin öz maraqları istiqamətində yönəldilə bilsin, ümummilli ahəng üstündə köklənsin. Yəni bütün daxili potensial, təbii sərvətlərdən tutmuş intellektual gücə, mədəni-mənəvi dəyərlərə qədər bütün imkanlar elə səfərbər edilməli və elə istiqamətləndirilməlidir ki, hər bir vətəndaş ümummilli tərəqqi kontekstində öz şəxsi maraqlarını da realizə edə bilsin.

Lakin kütləvi siyasiləşmə və ifrat siyasi qarşıdurmalar, təbii ki, qüvvələrin vahid amal uğrunda səfərbər edilməsinə və ümummilli tərəqqiyə xidmət etmir. Müstəqillik əldə etdikdən sonra daxili enerjinin quruculuq işlərinə deyil, başqa səmtə yönəldilməsi, görünür, kimlərəsə lazım imiş. Qondarma Dağlıq Qarabağ problemi də bu siyasiləşməni gücləndirmək və azadlığa çıxmış xalqların milli tərəqqisinə mane olmaq üçün vasitələrdən biri idi. Lakin biz hələ də böyük dövlətlərin geostrateji planlarından doğan siyasi burulğandan çıxa bilmirik.

Bax, belə bir şəraitdə siyasi təbəddülatlara uymadan ümummilli tərəqqi naminə fəaliyyətlərin davam etdirilməsinə böyük ehtiyac vardır. Nə yaxşı ki, hələ Sovet dövründə də kommunist ideologiyasının yaratdığı labirintlərdən məharətlə keçərək, milli mədəniyyətin tərəqqisi, xalqın maarifləndirilməsi, ədəbi-bədii və fəlsəfi təfəkkürün inkişaf etdirilməsi sahəsində böyük xidmətlər göstərən ziyalılarımız, bu gün də cari problemlərin cazibə dairəsinə düşmədən, heç bir konyukturaya uymadan bəşəri və milli-mənəvi dəyərlərimizi tədqiq və təbliğ etməklə, ümummilli tərəqqiyə xidmət edirlər.

Bu gün siyasiləşmiş cəmiyyət və qütbləşmiş təfəkkür, öz ehtiyaclarına uyğun yeni ədəbiyyat tələb etdiyi üçün, klassik ədəbiyyatın və klasik mədəni-mənəvi dəyərlərin ön plana çəkilməsi heç də müqavimətsiz qarşılanmır. Lakin bizcə, siyasiləşmiş təfəkkürün tələblərinə uyğun yeni ədəbiyyat axtarışına çıxmaqdansa, siyasi düşüncənin özünü ümumbəşəri və milli dəyərlərin prioritetliyi kontekstinə yönəltmək cəhdləri daha əhəmiyyətlidir. Əsl böyük ziyalılıq da elmi və ya bədii yaradıcılığın və şəxsi nüfuzun, məhz dövlətçiliyin möhkəmləndirilməsinə yönəldilməsini tələb edir.

Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev deyirdi: "Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənafeləri, maraqları haqqında düşünməsin".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## 2,5 milyon dollara saat satılır



İsveçrədə 18 karatlıq ağ qızıldan yeganə nüsxədə hazırlanan “Rolex Cosmograph Daytona” saatı 2,5 milyon dollara “Bacs & Russo” hərracına çıxarılıb.

1970-ci ildə alman satıcı tərəfindən varlı müştəri üçün sifariş edilən unikal saatın satışı mayın 12-də Cenevrədə baş tutacaq. Saat xeyriyyəçilik məqsədi ilə hərraca qoyulub. Onun satışından əldə olunan bütün vəsait köməksiz və diqqətdən kənar qalan uşaqlara və onların ailələrinə yardım edən “Children Action” təşkilatının fonduna köçürüləcək.

“The Unicorn” adlandırılan nadir əşya mütəxəssis Con Qoldberq tərəfindən səkkiz il əvvəl kolleksiyaların birində aşkarlanıb. Bu tapıntı həmin saatı tarix üçün itirilmiş hesab edən ekspertləri heyrətə gətirib.

Qeyd edək ki, bu ilin yanvarında nadir qənimət saat - “Rolex Panerai 3646” “Fellows” satış evinin Birminhem şəhərində keçirilən hərracında 52 min funt-sterlinqə satılmışdı. Britaniyalı çavuş onu Niderlandda körpünü partlatmağa cəhd edən alman dalğıcının qolundan açmışdı. Belə xronometrlər 1940-cı illərdə hazırlanırdı. Əvvəlcə bu saatlar İtaliyanın Hərbi Dəniz Qüvvələrinin zabitlərinə verilib, sonradan italyanlar onları almaniyalı təxribatçı-həmkarlarına bağışlayıblar.

## Saçı tökülən kişilərin dərmanı - BU BİTKİDİR



Əsrlər əvvəl müasir dərmanlar yox idi. Amma elə otlar var idi ki, onlar insanların həyatını xilas edirdilər. Günümüzün reallığı odur ki, bahalı dərmanlar, ardı-arası kəsilməyən prosedurlar dərdimizə əlac olmur. Amma sıradan bir ot, bizə həyatımızı və sağlamlığımızı geri qaytarır.

Heç bir qulluq tələb etmədən yetişən, bənövşəyi rəngdə çiçəklər açan əməköməcinin yarpaqları tərəvəz kimi, çiçəkləri isə dərman olaraq istifadə edilir. Yaz ayında əməköməcinin yarqaları sulu olduğu üçün balla qarışığı zob xəstəliyinin dərmanı kimi istifadə edilir.

Əməköməci keçəlliyə, saçların tökülməsinə qarşı da yaxşı vasitədir. Saçı tökülən adamlar (xüsusilə keçəlləşən kişilər) əməköməcini əzərək, ya da ət maşınından çəkərək cunaya yaxaraq başa qoymalıdır. Səhərdən axşamacan başda qalan bu məlhəm yapışqan kimi başa yapışacaq. Sonra əməköməcini təmizləyib səhəri gün bu proseduru təkrarlamaq lazımdır. Üç gün təkrarlanan bu prosedurun sonunda başda tüklərin əmələ gəldiyi müşahidə olunacaq. Tüklənmədən əziyyət çəkən insanlara bu bitkidən uzaq durmaları tövsiyə olunur.

## Gömrükçülər güclü təsirə malik dərman preparatlarını müsadirə edib

Gömrükçülər güclü təsirə malik dərman preparatlarını müsadirə edib. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İstanbul-Bakı aviareysi ilə gələn Azərbaycan Respublikasının vətəndaşı Emil Abdurəşid oğlu İbrahimov əvvəlcədən mütləq qaydada bəyan etməli olduğu əşyaları gömrük qanunvericiliyinin tələbinə əsasən, gömrük orqanına elektron və ya yazılı formada bəyan etməyib.

E.İbrahimov gömrük nəzarətindən keçərkən, hərəkətləri və əl çantasındakı təsvirlər şübhə doğurduğu üçün, o, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən müvafiq qanunvericiliyə uyğun saxlanılıb. Sərnişinin çantası təkrar yoxlamadan keçirilib və orada üzərində “LYRICA Pfızer Pregabalin 300mg kapsul” sözləri yazılmış üç qutuda ümumilikdə 168 ədəd kapsul aşkarlanıb.

Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin müvafiq arayışına əsasən, həmin kapsuldakı dərman preparatı preqabalindir. Ümumi sayı 168 ədəd olan kapsulda (bir kapsulda 300mg) təsiredici maddənin ümumi miqdarı 50,4 qram təşkil edir.

## Azərbaycan güləşçiləri beynəlxalq turnirdə iki medal qazanıblar



Martın 23-də Bolqarıstanın paytaxtı Sofiyada güləş üzrə 56-cı “Dan Kolov - Nikola Petrov” beynəlxalq turnirinə start verilib. AZƏRTAC xəbər verir ki, turnirin ilk günündə yunan-Roma güləşçilərimizdən Rəsul Çunayev (72 kq) və qadın güləşçilərimizdən Elis Manolova (65 kq) mübarizə aparıblar. Güləşçilərimiz 1 qızıl və 1 bürünc medal qazanıblar. Mübarizəyə 1/8 finaldan başlayan Rəsul Çunayev (72 kq) ilk olaraq Polşa, ardınca Rumıniya idmançısını vaxtından əvvəl təmiz qələbə ilə məğlub edib. Yarımfinalda Türkiyə təmsilçisindən də üstün olan güləşçimiz finala yüksəlib. Həlledici görüşdə onun rəqibi Fransa təmsilçisi olub. Vaxtından əvvəl rəqibini məğlub edən Rəsul Çunayev turnirin qızıl medalına sahib çıxıb. Turnirdə 65 kiloqram çəkidə mübarizə aparan qadın güləşçimiz Elis Manolova ilk olaraq Yunanıstan təmsilçisinə tam üstünlüklə qalib gəlib. Ardınca Rusiya idmançısını məğlub edən güləşçimiz yarımfinalda Çexiya təmsilçisinə uduzub. Bürünc medal görüşünə haqq qazanan Elis Manolovanın rəqibi Macarıstan idmançısı olub. Rəqibini üstələyən güləşçimiz turnirin bürünc medalını əldə edib. Martın 24-də yunan-Roma güləşçimiz Elman Muxtarov (67 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) mübarizəyə qoşulacaqlar.

## Azərbaycan millisi Belarus yığması ilə qarşılaşıb



Martın 23-də futbol üzrə Azərbaycan və Belarus milli komandaları arasında yoldaşlıq oyunu keçirilib. İlk hissəyə daha fəal başlayan Belarus millisi komandamızın qapısı qarşısında təhlükəli vəziyyət yaradıb. Oyunun gedişində hər iki komanda bərabər səviyyədə mübarizə aparsa da, 42-ci dəqiqədə millimizin futbolçusu Maksim Medvedev avtoqolla yadda qalıb.

Matçın ilk hissəsi Belarus yığmasının minimal üstünlüyü ilə başa çatıb - 1:0. Qarşılıqlı hücumlar şəraitində keçən oyunun ikinci hissəsində qapılara top vurulmayıb. Beləliklə, görüş Belarus millisinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

## Kriştianu Ronaldu karyerasında 900-cü oyununa çıxıb



Futbol üzrə Portuqaliya millisinin Misir ilə keçirdiyi yoldaşlıq görüşü Kriştianu Ronaldu üçün əlamətdar olub. AZƏRTAC xarici KİV-lərə istinadən xəbər verir ki, hücumçu karyerasında 900-cü oyununa çıxıb. O, “Sportinq”də 31, “Mançester Yunayted”də 292, “Real Madrid”də 429 və milli komandada 148 oyun keçirərək, ümumilikdə 647 qol vurub. Qeyd edək ki, Misir ilə görüşdə Ronaldu karyerasında ilk dəfə matçın əsas vaxtına əlavə edilmiş dəqiqələrdə iki qola imza atıb.

## Azərbaycan-Makedoniya oyununu türkiyəli hakimlər briqadası idarə edəcək



Martın 27-də Antalyada futbol üzrə Azərbaycan və Makedoniya yığma komandaları arasında keçiriləcək yoldaşlıq oyununun hakimləri müəyyənləşib. Türkiyə mətbuatının yazdığına görə, görüşün baş hakimi Halis Özkahya olacaq. Ona həmyerliləri Kamal Yılmaz və Kərəm Ersoy kömək edəcəklər. Matçın dördüncü hakim funksiyasını isə Ali Palabıyık yerinə yetirəcək. Qeyd edək ki, Azərbaycan-Makedoniya oyunu Bakı vaxtı ilə saat 20:00-da Antalyadakı “Mardan” stadionunda start götürəcək.

## Kişi və qadın taekvondoçularımız təlim-məşq toplanışına qatılacaqlar

Martın 25-də taekvondo üzrə Azərbaycan yığma komandalarının təlim-məşq toplanışına start verəcək. AZƏRTAC xəbər verir ki, kişilərin məşqinə 12 idmançı - Məcid Sofiyev (54 kq), Əli Məmmədov və Qaşım Maqomedov (hər ikisi 58 kq), Xanrul Fətullayev (63 kq), Ayxan Tağızadə, Məhəmməd Məmmədov (hər ikisi 68 kq), Səid Quliyev, Ələsgər Əliyev (hər ikisi 74 kq), Milad Beiqi Harçeqani (80 kq), Ramin Əzizov, Payam Qobadi Oğaz (hər ikisi 87 kq) və Radik İsayev (+87 kq) dəvət ediliblər. Qadınların hazırlığına isə Nərgiz Mirzəyeva (46 kq), Fatimə Mansur (49 kq), Patimat Abakarova (53 kq), Mahtap Kiyaniçande (57 kq), Fəridə Əzizova (67 kq), Elvarə Cəlilova (73 kq) və Zəhra Kalxoran (+73 kq) çağırılıblar.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500